12 mart 2021-ci il
№10 (8918)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# Güclü vətənpərvərlik hissinə, milli ruha sahib gənclik



## Prezident İlham Əliyev: “Gənc nəslin tərbiyə edilməsi gündəlik fəaliyyətimiz olmalıdır”

Gənclik ictimai-siyasi proseslərdə hər zaman öndə gedən, ölkənin siyasi həyatında fəal iştirak edən aparıcı qüvvədir. Onun istər milli məsələlərin ortada olduğu məqamlarda, istər ayrı-ayrı taleyüklü məsələlərdə fərqli əhvali-ruhiyyə ilə önə çıxması, kəmiyyət etibarı ilə çoxluq təşkil etməsinin kifayət qədər praktik nümunələri mövcuddur. 44 günlük Vətən müharibəsində gəncliyin oynadığı rol bunun ən uğurlu örnəklərindən biridir desək, yanılmarıq.

➪Ardı səh.3

## 2400-ə yaxın şagirdin biliyi yoxlanılıb

III, VI və VII sinif şagirdləri arasında keçirilən milli qiymətləndirmə tədqiqatı davam edir. Bu günə qədər 20 region üzrə III sinifdə təhsil alan şagirdlərin qiymətləndirilməsi yekunlaşıb.

Təqribən 2400 nəfər III sinif şagirdinin tədris dili, riyaziyyat, xarici dil, fiziki tərbiyə, musiqi, texnologiya, təsviri incəsənət və həyat bilgisi fənləri üzrə bilikləri yoxlanılıb.

Qeyd edək ki, milli qiymətləndirmə şagirdlərin məktəbdaxili qiymətləndirmə üzrə nəticələrinə təsir göstərmir. Bu qiymətləndirmə tədqiqat xarakteri daşıyır və tədris ili ərzində mütəmadi təşkil olunacaq. Tədqiqatın nəticələri əsasında şagirdlərə dəstək üsulları hazırlanacaq.

## Təhsildə inklüzivlik üzrə təlim keçirilib

Avropa İttifaqının maliyyələşdirdiyi və BMT-nin İnkişaf Proqramının həyata keçirdiyi "Ənənəvi incəsənət vasitəsilə inklüziv təhsilin təşviqi" layihəsinin mütəxəssisləri tərəfindən peşə təhsili müəssisələrinin rəhbərləri üçün peşəkar təlim keçirilib. Təlimdə peşə təhsili müəssisələrindən 18 nəfər nümayəndə iştirak edib. Təlim proqramı əlilliyin sosial modeli və inklüzivliyin prinsipləri, inklüziv mühitin yaradılması, təlimə dəstək planının strukturu və istifadə qaydaları, inklüziv təhsilin təşkili, eləcə də tədris prosesinin müxtəlif diaqnozlara uyğunlaşdırılması və tədris hədəflərinin müəyyənləşdirilməsi kimi mövzuları əhatə edir.

Qeyd edək ki, bu təşəbbüs “Vətəndaş cəmiyyətinin iştirakı və inklüziv təhsilin tətbiqi vasitəsilə Azərbaycanda təhsil sisteminin müasirləşdirilməsi” proqramı çərçivəsində həyata keçirilib.

## “Gənc nəsildə bacarıqları inkişaf etdirməliyik”

“Yeni çağırışlar”da onlayn müzakirə proqramının növbəti qonağı, dünyaca tanınmış təhsil tədqiqatçısı, alim və yazıçı Toni Vaqner təhsil təcrübələrini paylaşıb.

Təhsil Nazirliyinin dəstəyi və T-Network təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən “Yeni çağırışlar” proqramının 8 mart 2021-ci il tarixində yayımlanan bölümündə beynəlxalq qiymətləndirmə proqramlarında qabaqcıl olan ölkələrin təhsilinin uğur təcrübəsi, təhsildə yenilik, dəyişiklik və liderlik, qeyri-ənənəvi təhsil haqqında danışılıb.

➪Ardı səh.10

**SABAH tələbələrindən yüksək nəticə**

➪səh.6



**Bu müharibənin nəticəsi ancaq qələbə ola bilərdi**

➪səh.12



**Təhsil texnologiyaları məktəbi dəyişəcək**

➪səh.16

# Biz intiqamımızı döyüş meydanında aldıq



**30 ilə yaxın davam edən işğala 44 gündə son qoyuldu. “Həlli yoxdur” - deyilən Qarabağ münaqişəsi həllini tapdı. Noyabrın 10-da Ermənistan kapitulyasiya aktına imza atandan və sülh əldə olunandan sonra Prezident İlham Əliyev xalqa müraciətində vurğulayırdı: “Məsələ ilə məşğul olan siyasətçilərin hamısı deyirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən nə deyirdim? Deyirdim ki, var! Məni tənqid edirdilər ki, İlham Əliyev nə danışır? Yoxdur hərbi həlli. Dedim yaxşı, yoxdursa, onda bunu sülh yolu ilə həll edin... Sülh yolu ilə 1 il, 2 il, daha 30 il sülh yolu ilə?”**

Münaqişənin yalnız sülh yolu ilə həllinin mümkünlüyünə inandırmağa çalışanlara bunun üçün 30 ilə yaxın vaxt verildi. Bu müddət ərzində Azərbaycan dünyanı əzəli torpaqlarını güzəştə getməyəcəyinə inandırdı.

Azərbaycan bir tərəfdən diplomatik danışıqları davam etdirib, digər tərəfdən silahlandı, Ordu quruculuğuna böyük vəsait ayırdı. Yəni, uzun illərdir ki, Azərbaycanın dövlət büdcəsində hərbi xərclərin birinci yerdə olması təsadüf deyildi. Nəticə göz qabağındadır.

**İlham ƏLİYEV, Ali Baş Komandan**

**“Vətən müharibəsi eyni zamanda peşəkar komandanlıq nümunəsidir”**

### Azərbaycan silahlanır

Azərbaycanda nizami ordunun yaranması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdırsa, möhkəmlənməsi Prezident İlham Əliyevin fəaliyyətinin nəticəsidir. Qarabağ meydanında düşmən qarşısına ən müasir silahı, güclü psixoloji keyfiyyəti ilə çıxardığımız ordu uzun illərin hazırlığı, bu sahəyə verilən öncəliyin nəticəsidir. “21-ci əsrdə Azərbaycanın hərbi büdcəsi Ermənistanın hərbi büdcəsini 3-5 dəfə üstələyib; bəzi illərdə Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün dövlət büdcəsindən daha çox olub” - Rusiya Elmlər Akademiyası Uzaq Şərq İnstitutunun baş elmi işçisi Vasili Kaşin belə deyir. O, mətbuata müsahibəsində Ermənistanla Azərbaycanın silahlanma strategiyasını müqayisə edir: “Azərbaycan silahlanmaya sərf etdiyi xərclər və planlaşdırma işi daha məqsədyönlü idi”.

### Döyüşən Azərbaycan

Beləliklə, Azərbaycan bu müharibəyə məqsədyönlü şəkildə hazırlaşdı. Üstəlik, sadəcə silahlanaraq yox, həm də döyüş qabiliyyətini, fiziki hazırlığını, psixoloji keyfiyyətlərini artıraraq. Nəhayət, o gün gəldi. Ermənistanın siyasi və hərbi təhrikləri Azərbaycanı qəti addım atmağa sövq etdi. Məqsəd bir, hədəf qəti idi: torpaqlar işğaldan azad edilməli, ölkənin ərazi bütövlüyü təmin olunmalıydı. Prezident İlham Əliyev ordunun qarşısına qoyulan hədəfə nail olduğunu dünya mediası qarşısında da bəyan etdi:”- Müzəffər ordu onun qarşısında duran vəzifənin öhdəsindən məharətlə gəlib. Hədəf ərazi bütövlüyümüzün bərpa edilməsi idi və Azərbaycan hərbi qələbəni qazandı. Torpaqları danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad etdik. Döyüşərək, qan tökərək, şəhidlər verərək ədaləti bərpa etdik. Şəhidlərimizin qanını yerdə qoymadıq. Düşməndən intiqamımızı döyüş meydanında aldıq”.

Qarşıda duran vəzifənin öhdəsindən gəlməkdə və qısa müddətdə hədəfə çatmaqda strateji planlaşdırma və peşəkar komandanlıq çox böyük rol oynadı. Ali Baş Komandan gündəlik döyüş planını sərkərdələri ilə müzakirə etdi, başa çatan günün nəticələrini təhlil edib, yeni günün planını qurdu. “Strateji planlaşdırma qələbənin əldə olunmasını təmin edən əsas amillərdən biridir. Planlaşdırma düzgün olmasaydı, qələbənin əldə olunması çox çətin olardı. Ona görə ki, orada uzunmüddətli istehkamlardan əlavə, təbii relyef də çətinlik törədir. Dağa dırmaşmaq, aşağıdan yuxarıya qalxmaq lazımdır. Şuşanın alınması isə, ümumiyyətlə, ayrıca dastandır”, - deyən Prezident İlham Əliyevin fikrincə, bu müharibə Azərbaycan Orduna yeni təcrübə qazandırıb: “Müharibə dövründə biz yeni təcrübə topladıq. Çünki bizim ordumuz müharibələrdə iştirak etmirdi. İndi müharibə çox böyük bir təcrübədir. Biz bu təcrübədən düzgün nəticə çıxarmalıyıq. Böyük uğurlarımız olub. Eyni zamanda, müharibə dövründə müəyyən çatışmazlıqlar da olub, amma onlar həll edilib”.

Çatışmazlıqlar həll edildi və müharibə uğurla başa çatdı. Azərbaycan Prezidenti dünya mətbuatının qarşısında qalib baş sərkərdə və dövlət başçısı olaraq qələbənin necə qazanıldığını açıqladı: “Vətən müharibəsi eyni zamanda peşəkar komandanlıq nümunəsidir. Vahid komandanlıq, planlaşdırma olmadan qələbənin əldə olunması mümkünsüz olardı. Bütün elementlərin düzgün kombinasiyası: kəşfiyyat, artilleriya, pilotsuz uçuş aparatları, pilotsuz kamikadzelər, xüsusi təyinatlılar, ordu korpusları - qələbəyə gətirib çıxarıb”.

### Qəhrəman əsgər

Prezidentin ifadəsi ilə desək,Qarabağ müharibəsi bütün elementlərin düzgün kombinasiyası deməkdir. Bu kombinasiyanın mərkəzində isə qəhrəman Azərbaycan əsgəri mövqe tutub. Savaşın əsas qəhrəmanı odur, nizami Azərbaycan Ordusu və onun əsgəridi. Qələbə məhz onların - qəhrəman oğulların qanıyla yazdığı qürur hekayəsidir. Bu qədər mürəkkəb hərbi əməliyyatlar icra edə biləcəyini və irəliləyəcəyini düşünməyən müşahidəçilər üçün Azərbaycan Ordusu meydana uğurlu nəticələrlə çıxdı.

Ordumuz müşahidəçilərdən, dünyadan əvvəl düşmənini təəccübləndirdi. Sadəcə təəccübləndirmədi, onun qorxulu yuxusuna çevrildi.Bunu Fransadan könüllü olaraq Qarabağa gəlmiş erməni döyüşçünün “Yerevan-Today” kanalında yayılan xatirələrindən daha aydın görmək olar: “Onların gəlişi sanki ölüm mələyinin gəlişi kimiydi. 3-4 nəfərlə gəlib, səngərdəki silahlanmış 20-30 erməni əsgərini öldürərək, gəldikləri kimi də yoxa çıxırdılar... Deyirlər ki, 1500 erməni əsgəri 5-6 Azərbaycan əsgərinin qarşısından qaçdı. Bəli, qaçırdıq”.

Düşmənin etirafından da göründüyü kimi, onlar hələ uzun müddət özlərinə gələ bilməyəcəklər. Onlar qaçmağa məhkum idi. Çünki qarşılarında ürəyində torpaq həsrəti, düşüncəsində konkret hədəfi olan Azərbaycan Ordusunun yüksək hazırlıqlı döyüşçüləri vardı. Prezident İlham Əliyevin fikrincə, peşəkarlıq olmadan qələbə mümkün olmazdı: “Azərbaycan Ordusu döyüşlər zamanı öz dözüm və peşəkarlığını nümayiş etdirib. Silahdan istifadə etmə məharəti və inanılmaz fiziki qüvvə böyük hazırlıq tələb edir. Sal qayalara aşağıdan dırmaşmaq, müdafiə xətlərini yarmaq peşəkarlıq olmadan qeyri-mümkündür”.

Xüsusi təyinatlıların düşmənin canına vəlvələ salan qəhrəmanlığı xalqın da onlara qarşı xüsusi rəğbət hissini gücləndirib. Lakin bu da bir həqiqətdir ki, əldə olunmuş böyük qələbədə bütün qoşun növlərinin öz payı var.Döyüş əməliyyatlarında Sərhəd Xidmətinin xüsusi təyinatlı qüvvələri, daxili qoşunlar, təhlükəsizlik xidməti, kəşfiyyat xidməti, Naxçıvan ordusunun xüsusi qüvvələri fəal iştirak edərək düşmənə sarsıdıcı zərbələr endirib. Vahid komandanlıq altında hər biri öz vəzifəsinin öhdəsindən məharətlə gəlib. Ordu korpusları ərazilərin azad edilməsi və mövqelərin əldə saxlanması ilə bağlı tapşırıqları məharətlə icra edərək üzərlərinə düşən məsuliyyəti layiqli şəkildə yerinə yetiriblər. Bu da nəticə. Prezident İlham Əliyev qısa müddətdə qazanılan qələbəni məhz onların fəaliyyəti ilə bağlayıb: “Azərbaycan əsgəri qəhrəmanlıq nümunəsidir. Azərbaycanın xüsusi təyinatlılarının və digər hərbi birləşmələrinin misilsiz mərdliyi, qəhrəmanlığı, fədakarlığı nəticəsində biz qələbəni qısa müddət ərzində əldə edə bildik”.

### Qarabağ müharibəsi dünya mediasının maraq dairəsindədir

Azərbaycan əsgəri qəhrəmandır. O psixoloji cəhətdən yüksək səviyyədə qiymətləndirilən bir qüvvəyə qalib gəlib. Uzun illər böyük istehkamlar qurmuş, işğal etdiyi ərazinin müdafiəsini gücləndirmiş amansız bir qüvvəyə.

Azərbaycan əsgəri, sadəcə beton ehkamları dırnaqları ilə aşmadı, həm də düşmənin yüksək psixoloji keyfiyyətlərini də yerlə bir etdi. Bunu necə etdiyinə gəlincə, bu mövzu müharibə dövründə də, ondan sonra da dünya mətbuatının maraq obyektindədir.

Dünya mətbuatının Azərbaycan Ordusunun peşəkarlığına diqqəti Prezident İlham Əliyevin xarici və yerli mətbuat nümayəndələri üçün keçirdiyi mətbuat konfransında da hiss olunub. Prezident bu müharibədə cəbhə aviasiyasının, pilotsuz uçuş aparatlarının itkilərin minimuma endirilməsində rolunu belə qiymətləndirib: “Pilotsuz uçuş aparatları təkcə zərbə və kəşfiyyat funksiyalarını deyil, həm də atəşin təshih edilməsi funksiyalarını yerinə yetirirdi. Hətta bəzən göstərilən kadrlarda da görünür ki, hədəf götürülüb, mərmi isə hədəfi vurur. Buna görə də bütün bu əməliyyatların kombinasiyası uğurla nəticələnib”.

Uzun sözün qısası, 44 günlük Vətən müharibəsi və onun nəticələri hələ də araşdırılır, hərbi-siyasi ekspertlərin müzakirə mövzusuna çevrilir. Görünən odur ki, hələ uzun müddət də danışılacaq. Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Müzəffər Azərbaycan Ordusu haqqında danışarkən hiss etdiyi qüruru gizlətməyib: “Zaman keçdikcə məxfilik qrifi götürüləcək və informasiya daha çox olacaq. Amma bizə məlum olan faktlar da Ordumuzun peşəkarlığı və şücaəti ilə qürur duymağa əsas verir”.

Bu gün əminliklə deyə bilərik ki, “Azərbaycan Ordusu döyüş meydanında tarix yazdı”,- ifadəsi gəlişi gözəl söz deyil, reallığın tam ifadəsidir. Göstərdiyi gücü və yenilməzliyi ilə Müzəffər Azərbaycan Ordusu təkcə düşmənini, onun havadarlarını yox, bütün dünyanı da təəccübləndirdi. Müharibə başlayan kimi döyüşlərə qatılan Biləsuvar rayonu Bağbanlar kənd orta məktəbinin direktoru Nazim Sadıqov “Azərbaycan müəllimi” qəzetinə müsahibəsində Ordumuzun qüdrətindən necə təsirləndiyini deyir: “Mən bu müharibədə ordumuzun gücünü gördüm. Xalqımızın birliyini gördüm. Düşmənimiz zəif deyildi, ancaq bizim qarşımızda çox gücsüz idi, qaçmağa məhkum idi”.

**Ruhiyyə DAŞSALAHLI**

# Güclü vətənpərvərlik hissinə, milli ruha sahib gənclik



## Prezident İlham Əliyev: "Gənc nəslin tərbiyə edilməsi gündəlik fəaliyyətimiz olmalıdır"

⇦ Əvvəli səh.1

Vətən müharibəsi birmənalı şəkildə sübuta yetirdi ki, müstəqillik dönəmində güclü vətənpərvərlik hissinə malik, milli ruhda tərbiyə almış, bilikli gənc nəsil yetişib. Qarabağ torpaqlarını işğaldan qurtaran, göz qırpmadan Vətən uğrunda canını fəda edən cəsur gənclik məhz Ulu Öndər Heydər Əliyev siyasi məktəbinin, Prezident İlham Əliyev idarəçiliyinin yetirmələridir.

Böyük Zəfərlə başa çatan Vətən savaşımızda bu gəncliyin təkcə vətənpərvərliyi qürur doğurmadı, onun həm də öz kökünə bağlılığı, heç vaxt görmədiyi doğma torpaqların tarixinə yaxından bələdçiliyi, unutqan olmaması hər kəsə sonsuz sevinc hissləri yaşatdı.

Prezident İlham Əliyev Vətən müharibəsində gəncliyin rolunu hər çıxışında qeyd edir, yüksək qiymətləndirir: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Bu günümüzün danılmaz reallığı həqiqətən də belədir: Azərbaycanda milli ruhda yetişmiş gənc nəsil var və bu gəncliyin önündə iradəli, heç bir güc mərkəzindən çəkinməyən, ölkəsinin milli maraqlarını müdafiə edən qətiyyətli, güclü LİDER var. Bu sarsılmaz birlik, möhtəşəm tandem Azərbaycanın gələcəkdə daha böyük uğurlara imza atacağına inam bəsləməyə əsas verir.

Amma bu reallıq hansısa formada arxayınçılıq hissləri doğurmamalıdır. Yetkin, savadlı, milli ruha bağlı, vətənpərvər gəncliyin formalaşması, onlarla düzgün ideoloji işin aparılması bundan sonra da əsas vəzifələr sırasında yerini qoruyub saxlamalıdır.

Unutmaq olmaz ki, gənclik hər zaman cəmiyyətin enerjili hissəsidir. Əgər bu qüvvə ilə düzgün təbliğati iş aparılmasaydı, tam əksi də ola bilərdi. Güclü, vətənsevər gənc nəsil təkcə ailədə yetişmir, o, belə pozitiv keyfiyyətləri həm də təhsilində qazanır; şəxsiyyətinin mükəmməl, müsbət cizgiləri məktəb, universitet auditoriyasında formalaşır. Sözsüz ki, təhsil vətənpərvərlik məsələsini heç vaxt arxa plana keçirmir, əksinə öndə tutur, biliklərin tədrisini bu vacib təbliğatla paralel aparır və aparmaqda davam edir.

Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının (YAP) VII qurultayındakı yekun nitqində gənc nəsillə davamlı işin aparılması üzərində xüsusi dayanması heç də təsadüfi deyildi. Söhbət ondan gedir ki, bu gün sosial şəbəkələrin, azad internetin verdiyi geniş imkanlardan məqsədli şəkildə yararlanıb yaxın tariximizin təhrif olunması, gəncliyin səhv istiqamətə yönləndirilməsi kimi meyllər hələ də mövcuddur. Ulu öndər Heydər Əliyev xalqın tələbi ilə müstəqil Azərbaycanın siyasi rəhbərliyinə gələnə qədər ölkədə hansı proseslərin baş verdiyini yaşlı nəsil yaxşı bilir, çünki bunun əyani şahidi olub. Lakin Azərbaycanın 20 və ya 30 yaşlı gənci həmin hadisələri gözləri ilə görməyib. Ola bilsin, bunu hardasa oxuyub, eşidib, bəlkə yanlış, bəlkə doğru, lakin o prosesləri yaşamayıb, öz həyatında hansısa şəkildə hiss etməyib deyə, həqiqəti obyektiv, dürüst mənbələrdən eşitməyə ehtiyacı var.

1991-1992-ci illərin ümumi mənzərəsi olduğu kimi izah edilməlidir: ölkə parçalanmaq təhlükəsi ilə üzləşmişdi, cəbhədəki əsl düşmən unudularaq daxildə silahlı dəstələr hakimiyyət uğrunda mübarizəyə girərək bir-birlərinə atəş açırdı, təsadüfi, savadsız, təcrübəsiz adamlar dövlət idarəetməsini küçə səviyyəsinə endirmişdi, ölkənin iqtisadiyyatı dağıdılmışdı və bütün sferalarda tam bir xaos hökm sürürdü. Bu izah ona görə lazımdır ki, həmin siyasi vəziyyətin müəllifləri, müəyyən xarici dairələrə bağlı şəxslər, ötüb keçən zamanı fürsət bilərək bu gün öz çıxışlarını, siyasi fəaliyyətlərini məhz həmin dövrü gözləri ilə görməyən yeni gənc nəsil üçün hesablayırlar; onları ələ almağa, enerjilərini mənfi istiqamətə yönləndirməyə çalışırlar.

Bu səbəbdən gənclərin düzgün istiqamətdə maarifləndirilməsi, tərbiyə edilməsi aktuallığını heç zaman itirməyən məsələdir; bu aktuallıq gənclərimizlə mütəmadi işləmək tələb edir. Prezident İlham Əliyev qurultaydakı çıxışında gənc nəslin düzgün istiqamətdə tərbiyə edilməsinin gündəlik fəaliyyətimizə çevrilməsinin vacibliyinə buna görə diqqət çəkdi: "Biz indi qlobal dünyada, qlobal informasiya məkanında yaşayırıq. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan daim informasiya hücumuna məruz qalan ölkədir və bizə qarşı nə qədər çirkin kampaniyalar aparılıb, istisna edilmir ki, gələcəkdə də aparılacaqdır. Ölkəmizin imicini aşağı salmaq, ölkə daxilində inamsızlıq yaratmaq, saxta faktlar ortaya atmaq-bütün bunların bir məqsədi var, çaxnaşma, xaos şəraitində gələcəkdə, hansısa xarici dairələr üçün zəmin yaratmaq. Biz buna imkan verə bilmərik. Ona görə gənc nəslin tərbiyə edilməsi gündəlik fəaliyyətimiz olmalıdır. Həm ali məktəblərdə, ilk növbədə, ailələrdə və eyni zamanda, siyasi partiyalarda buna fikir verilməlidir...".

Dövlət başçısı qurultayda gənclərlə təbliğat işini həm də hakim partiyanın veteranlarına tövsiyə etdi. Ona görə ki, yaxın 30 ilin bütün tarixi, siyasi təfərrüatları yaşlı nəslin şahidliyi, müşahidəsi, bəzi hallarda iştirakı ilə baş verib. Demək ki, gənc nəslin nümayəndələri ilə görüşlərdə onlara yaxın tariximizlə bağlı veriləcək məlumatlar canlı şahidlərin faktları ilə mötəbərlik qazanmış olardı.

Üstəlik, Prezidentin çıxışındakı gənclərlə bağlı mühüm məqamlar düzgün ideoloji iş aparmaq vəzifəsini hər kəsin üzərinə qoyur.

Müstəqilliyinin 30 illiyini qeyd etməyə hazırlaşan Azərbaycan dövləti bu dövrdə daha da güclənib. Ölkəmiz böyük güc mərkəzlərində təmsil olunmaq və belə qurumlara rəhbərlik etməyə qədər irəliləyib; tam müstəqil, maliyyə baxımından heç kimdən asılı olmayan dövlətə çevrilib. Dünya çapında güclü ordu quran Azərbaycan təkbaşına işğal altında olan toraqlarını düşmən tapdağından azad edib və hansı imkanlara malik olduğunu sübuta yetirib. Təbii ki, bu vəziyyət Azərbaycanın daha da güclü olmasını istəməyən bəzi dairələrdə qısqanclıq doğurur. Bu isə bütün cəmiyyətimizin daha fəal olmasını, gənc nəsillə işin yeni dövrün tələblərinə uyğun daha da gücləndirilməsini zəruri edir.

**Elman BABAYEV,**
**Əməkdar jurnalist**

- **"Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".**

- **"Biz indi qlobal dünyada, qlobal informasiya məkanında yaşayırıq. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan daim informasiya hücumuna məruz qalan ölkədir və bizə qarşı nə qədər çirkin kampaniyalar aparılıb, istisna edilmir ki, gələcəkdə də aparılacaqdır. Ölkəmizin imicini aşağı salmaq, ölkə daxilində inamsızlıq yaratmaq, saxta faktlar ortaya atmaq-bütün bunların bir məqsədi var, çaxnaşma, xaos şəraitində gələcəkdə, hansısa xarici dairələr üçün zəmin yaratmaq. Biz buna imkan verə bilmərik. Ona görə gənc nəslin tərbiyə edilməsi gündəlik fəaliyyətimiz olmalıdır. Həm ali məktəblərdə, ilk növbədə, ailələrdə və eyni zamanda, siyasi partiyalarda buna fikir verilməlidir...".**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ilə əlaqədar Ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işini daha da gücləndirmək məqsədi ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilsin.
2. Müsabiqə rayon (şəhər) və ölkə üzrə olmaqla 2 mərhələdə təşkil edilsin:

   2.1. Müsabiqənin ilk mərhələsi 2021-ci ilin mart ayında rayon və şəhərlərdə;

   2.2. ölkə mərhələsi aprel ayında Bakı şəhərində keçirilsin.
3. Müsabiqənin ölkə mərhələsinin iştirakçıları üçün aşağıdakı qaydada kvota müəyyənləşdirilsin:

   3.1. Bakı şəhərindən - 12 nəfər;

   3.2. Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərinin hər birindən və Abşeron rayonundan- 2 nəfər;

   3.3. digər şəhər və rayonların hər birindən - 1 nəfər;

   3.4. Təhsil Nazirliyinin birbaşa tabeliyindəki təhsil müəssisələrindən və özəl ümumi təhsil müəssisələrindən ümumilikdə - 5 nəfər.
4. Ümumi təhsilin təşkili və idarəolunması şöbəsi (R.Tağıyev) Təhsil Nazirliyinin birbaşa tabeliyindəki və özəl ümumi təhsil müəssisələrindən müsabiqənin ölkə mərhələsində iştirak edəcək şagirdlərin seçilməsini təmin etsin.
5. Ümumi təhsilin təşkili və idarəolunması şöbəsi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri müsabiqənin ilk mərhələsinin epidemioloji vəziyyət nəzərə alınmaqla təşkili üçün işçi qrupu və münsiflər heyəti yaratsınlar, müvafiq meyarlar əsasında iştirakçıları qiymətləndirib qaliblərin adlı siyahısını (SAA, oxuduğu məktəb, sinif və tədris dili) və ölkə mərhələsində qiymətləndirilmək üçün təqdimatlarının videoyazısını mart ayının 31-dək Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinə təqdim etsinlər.
6. 2021-ci ildə müsabiqə "Heydər Əliyev və Qarabağ" başlığı altında müəyyən olunmuş mövzular əsasında təşkil edilsin (1-ci əlavə). Ölkə mərhələsində hər bir iştirakçının təklif edilən mövzulardan biri üzrə çıxışının videoyazısının işçi qrupunun üzvləri tərəfindən qiymətləndiriləcəyi nəzərə alınsın.
7. Müsabiqənin ölkə mərhələsi iştirakçılarının təqdimatlarının qiymətləndirilmə meyarları və qiymətləndirməni aparan işçi qrupunun tərkibi təsdiq edilsin (2 və 3-cü əlavələr).
8. Müsabiqənin qalibləri diplom, tərifnamə və qiymətli hədiyyələrlə mükafatlandırılsın.
9. Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsi (V.Yaqublu) müsabiqənin ölkə mərhələsinin nəticələri barədə əmr layihəsini müsabiqə başa çatdıqdan sonra 3 gün müddətinə hazırlayıb rəhbərliyə, müsabiqə ilə bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.
10. Maliyyə şöbəsi (R.Orucov) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsin.
11. Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) müsabiqənin yekun tədbirinin epidemioloji vəziyyətdən asılı olaraq müvafiq formada təşkili, qaliblərin mükafatlandırılması ilə əlaqədar mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.
12. İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) əmrin əlavələri ilə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
13. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) əmrin əlavələri ilə birlikdə müvafiq struktur bölmələrə və yerli təhsili idarəetmə orqanlarına çatdırılmasını təmin etsin.
14. Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının**
**Təhsil naziri**

*10 mart 2021-ci il*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*10 mart 2021-ci il tarixli F-76 nömrəli əmrinə 1-ci əlavə*

### "Heydər Əliyev və Qarabağ" başlığı altında keçirilən müsabiqədə şagirdlərin təqdim edəcəyi mövzular

1. Heydər Əliyev: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur"
2. Heydər Əliyevin uzaqgörən siyasəti qələbəmizin təməlidir
3. Heydər Əliyev Azərbaycan ordusunun qurucusudur
4. Heydər Əliyev və milli mübarizə tariximiz
5. Heydər Əliyev: "Azərbaycan mənim ürəyimdir! Azərbaycan mənim nəfəsimdir! Azərbaycan mənim həyatımdır!"
6. Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir
7. Heydər Əliyevin gənclərin vətənpərvərlik, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyəsi istiqamətində çağırışları
8. Heydər Əliyevin gənclər siyasəti
9. Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticələri
10. Heydər Əliyev irsi və onun layiqli davamçıları

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*10 mart 2021-ci il tarixli F-76 nömrəli əmrinə 2-ci əlavə*

### "Ən yaxşı təqdimat" müsabiqəsinin ölkə mərhələsi iştirakçılarının təqdimatının qiymətləndirmə meyarları

1. Təqdimatın sərbəstliyi.
2. Təqdimatçının lüğət ehtiyatının zənginliyi.
3. Çıxış etdiyi mövzu ilə bağlı dolğun və əhatəli məlumata malik olduğunu nümayiş etdirməsi.
4. İrəli sürdüyü fikirləri faktlarla əsaslandırması.
5. Danışdığı mövzu ilə bağlı şəxsi mülahizələrini bildirməsi və yaradıcılıq səviyyəsi.

**Qeyd:** *İştirakçıların çıxışı hər bir meyar üzrə maksimum 5 bal olmaqla, ümumilikdə 25 balla qiymətləndirilir.*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*10 mart 2021-ci il tarixli F-76 nömrəli əmrinə 3-cü əlavə*

### "Ən yaxşı təqdimat" müsabiqəsinin ölkə mərhələsi iştirakçılarının təqdimatlarının qiymətləndirilməsini aparan işçi qrupunun tərkibi

**İşçi qrupunun sədri**

Firudin Qurbanov - Təhsil nazirinin müavini

**İşçi qrupunun həmsədri**

Mirzə Cəfərzadə - Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini

**İşçi qrupunun məsul katibi**

Gülarə Xudiyeva - Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin aparıcı məsləhətçisi

**İşçi qrupunun üzvləri**

Fərzəli Qədirov - Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini
Elnur Nəsibov - Təhsil nazirinin müşaviri
Vəfa Yaqublu - Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri
Əsgər Quliyev - Təhsil Nazirliyinin Təhsilin inkişaf proqramları şöbəsinin müdir müavini
Azad Şükürov - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Səhnə danışığı kafedrasının müdiri
İntiqam Cəbrayılov - Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsinin müdiri

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 291; 2018, № 2, maddə 350, № 4, maddə 816, № 12 (II kitab), maddə 2748; 2019, № 3, maddə 517; 2020, № 2, maddə 198, № 5, maddə 650) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisə-lərinə ümumi orta təhsil bazasında tələbə qəbulu Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

"3.2-1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin qüvvədə olduğu müddətdə qəbul imtahanı Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada bir mərhələdə keçirilir. Qəbul imtahanında abituriyentlərə Azərbaycan və ya rus dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim edilir. Bu mərhələdə abituriyentlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır. İmtahanın davametmə müddəti 3 saatdır.".

**2.** 3.4-cü bəndin birinci cümləsində "Hər mərhələdə imtahanın" sözləri "Qəbul imtahanının" sözləri ilə əvəz edilsin.

**3.** 3.5-ci bəndə "ikinci mərhələdə" sözlərindən sonra ", habelə bu Qaydaların 3.2-1-ci bəndinə uyğun olaraq keçirilən qəbul imtahanında" sözləri əlavə edilsin.

**4.** 3.9-cu bəndin ikinci cümləsindən "birinci mərhələdə" sözləri çıxarılsın.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 4 mart 2021-ci il*

# İsmayıllı Peşə Tədris Mərkəzinin adının dəyişdirilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** İsmayıllı Peşə Tədris Mərkəzi İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzi adlandırılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745, № 10, maddə 969, № 12, maddələr 1241, 1245; 2012, № 3, maddə 257, № 4, maddə 399, № 6, maddələr 633, 634, № 12, maddə 1346; 2013, № 6, maddə 775, № 9, maddə 1130; 2014, № 1, maddə 72, № 2, maddə 214, № 6, maddə 751, № 7, maddə 907, № 9, maddə 1120; 2015, № 3, maddə 336, № 6, maddə 807, № 8, maddə 966, № 10, maddələr 1226, 1229, № 12, maddə 1571; 2016, № 1, maddə 176, № 2 (II kitab), maddə 373, № 3, maddə 622, № 5, maddə 957, № 6, maddə 1209, № 10, maddə 1723, № 11, maddə 1919; 2017, № 2, maddələr 285, 302, 319, № 6, maddələr 1223, 1226; 2018, № 11, maddələr 2429, 2456, № 12 (II kitab), maddələr 2739, 2759; 2019, № 11, maddə 1853; 2020, № 3, maddə 368, № 7, maddə 980, № 10, maddə 1301) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Peşə təhsili müəssisələri" bölməsinin 47-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"47. İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzi".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 4 mart 2021-ci il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2217; 2018, № 4, maddə 814, № 12 (II kitab), maddə 2746; 2019, № 4, maddə 763, № 6, maddə 1141; 2020, № 2, maddələr 196, 216, № 5, maddə 650, № 11, maddə 1407) ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin qüvvədə olduğu müddətdə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı bir mərhələdən ibarət olmaqla, tədris Azərbaycan, rus və gürcü dillərində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - tədris dili, xarici dil və riyaziyyat fənlərindən, tədris ingilis, fransız və digər dillərdə aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - xarici dil və riyaziyyat fənlərindən olmaqla, Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir. Buraxılış imtahanında şagirdlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim edilir. Buraxılış imtahanında şagirdlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır. İmtahanın davametmə müddəti 3 saatdır. Buraxılış imtahanını yalnız xarici dil və riyaziyyat fənlərindən verən şagirdlər üçün imtahanın davametmə müddəti 2 saatdır.".

**2.** 2.6-cı bəndin üçüncü cümləsində "Ümumi" sözü "Bu Qaydaların 2.2-ci və 2.2-1-ci bəndlərinə uyğun olaraq ümumi" sözləri ilə əvəz edilsin və həmin cümləyə "imtahanının" sözündən əvvəl "imtahanında və ya" sözləri əlavə edilsin.

**3.** 2.8-ci bənddə "2.8-ci" sözləri "2.7-ci" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 4 mart 2021-ci il*

# Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində alt komitənin 7-ci iclası




Martın 5-də Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində Məşğulluq və sosial məsələlər, ictimai səhiyyə, təlim, təhsil və gənclər, mədəniyyət, informasiya cəmiyyəti və audiovizual siyasət, elm və texnologiya məsələləri üzrə alt komitənin yeddinci iclası keçirilib.

Azərbaycan tərəfindən Təhsil Nazirliyinin həmsədrlik etdiyi iclasda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Səhiyyə Nazirliyi, Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndələrindən ibarət heyət iştirak edib.

İclas zamanı Azərbaycan Respublikası və Avropa İttifaqı arasında sözügedən alt komitənin əhatə etdiyi sahələr üzrə əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri müzakirə edilib.

# Fevral ayı üçün tanınma üzrə müraciətlərin statistikası




Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən fevral ayı üçün tanınma üzrə müraciətlərə dair statistik məlumat açıqlanıb. Belə ki, qeyd edilən ay üzrə baxılmış 274 müraciətin 204-ü barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 70 müraciət barədə isə mənfi qərar qəbul olunub.

Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 45, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 23, akkreditasiyası olmayan ali təhsil müəssisəsində təhsil alması səbəbi ilə 1 və qeyri-ənənəvi təhsil formasında təhsil alması səbəbi ilə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb. İxtisas seçimlərində iqtisadiyyat üzrə 47, hüquqşünaslıq üzrə 41, tibb üzrə 32, maliyyə üzrə 27, menecment üzrə 20, biznesin idarə edilməsi üzrə 18, mühəndislik üzrə 14, beynəlxalq münasibətlər üzrə 14, mühasibat uçotu üzrə 8, turizm üzrə 7, kompüter elmləri üzrə 5, tarix üzrə 3, riyaziyyat üzrə 3 və digər ixtisaslar üzrə 35 nəfər müraciətçi qeydə alınıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Rusiya Federasiyasından 74, Ukraynadan 71, Türkiyə Respublikasından 70, Gürcüstandan 17, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 6, Polşadan 4, İtaliyadan 4, Şimali Kipr Türk Respublikasından 4, Çin Xalq Respublikasından 3, Belarus Respublikasından 3, Macarıstandan 3, Efiopiyadan 2, İsveçrədən 2, ABŞ-dan 2 və digər ölkələrdən 9 nəfərin yer aldığı müşahidə olunur.

Vətəndaşların Təhsildə Keyfiyyət Təminatı Agentliyinin internet səhifəsinin *(www.tkta.edu.az)* "Mütəmadi verilən suallar" bölməsi ilə tanış olmaları tövsiyə edilir.

## Təhsil naziri səfir və müvəqqəti işlər vəkili ilə görüşüb

Martın 10-da Təhsil naziri Emin Əmrullayev Qətər Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası ilə Qətər Dövləti arasında təhsil sahəsində əlaqələrin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib, universitetlərarası əməkdaşlığın təşviq edilməsinin vacibliyi vurğulanıb.

***

Martın 10-da Təhsil naziri Emin Əmrullayev İraq Respublikasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Maki Ressan Al-Mamori ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası ilə İraq Respublikası arasında təhsil sahəsində əlaqələrin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib.

## Apelyasiya Şurasının növbəti iclası

Martın 5-də Təhsil nazirinin müavini, Nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

“Microsoft Teams” platforması üzərindən keçirilən iclasda Qax Rayon Təhsil Şöbəsində məsləhətçi vəzifəsinə və Şamaxı Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Elturan Qasımovun, Sabirabad Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Şükufə Məmmədovanın, Gədəbəy Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd İlkin Abbasovun, Tovuz Rayon Təhsil Şöbəsində məsləhətçi vəzifəsinə namizəd İslam Məmmədlinin, Ucar Rayon Təhsil şöbəsində məsləhətçi vəzifəsinə namizəd Zaur Rüstəmovun müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaların üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. 4 nəfərin şikayətinin təmin olunması, iki vəzifə üzrə isə şikayətin təmin edilməməsi barədə Şura tərəfindən qərar qəbul olunub.

## Koreyalı mütəxəssislərin iştirakı ilə təlimlər

Azərbaycan və Koreya Hökumətləri arasında həyata keçirilən “Müəllimlərin Potensialının Artırılması və Azərbaycan Respublikası Təhsil Nazirliyi üçün Təhsil İnformasiya Sisteminin Yaradılması” texniki yardım layihəsi çərçivəsində təhsil işçiləri üçün təlimlər təşkil olunur.

Təlim proqramında iştirak üçün koreyalı mütəxəssislər tərəfindən Azərbaycanın müxtəlif bölgələrindən təhsil işçiləri üçün müsahibələr keçirilib və nəticədə 35 nəfər təlimlərdə iştirak hüququ qazanıb. Təlim proqramının məqsədi effektiv onlayn təhsilin təmin edilməsi üçün elektron məzmunun yaradılması istiqamətində Koreya təcrübəsindən faydalanmaqdır.

İştirakçılar təlimdə onlayn təhsil üçün tədris strategiyası və təlim proqramlarının yazılması, hekayə lövhəsinin hazırlanması və dizaynı, video dərslərin çəkilişi və montaj olunması kimi nəzəri və praktik biliklərə yiyələnirlər. Təlim proqramını uğurla bitirən və beynəlxalq sertifikat əldə edən təhsil işçiləri təlimdə qazanılan biliklər əsasında elektron məzmunların yaradılmasında iştirak edəcəklər. Daha sonra hazırlanmış elektron məzmunların video çəkilişi məqsədilə studiyanın qurulması nəzərdə tutulur.

Qeyd edək ki, sözügedən təlimlər Təhsil İnstitutu və Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin birgə dəstəyi ilə həyata keçirilir.

## SABAH tələbələrindən yüksək nəticə

2020-2021-ci tədris ili üzrə magistratura səviyyəsinə qəbul imtahanının I mərhələsində iştirak etmiş SABAH qrupları tələbələrinin 96,53 faizi keçid balını toplayıb. Tələbələrdən 1 nəfəri məntiq komponenti (50/50), 3 nəfəri isə ingilis dili komponenti üzrə maksimal bal (25/25) toplayıb.

Ümumilikdə Azərbaycanda magistratura səviyyəsinə qəbul imtahanının I mərhələsində cari ildə məzun olacaq 766 nəfər SABAH tələbəsindən 432 nəfəri iştirak edib, onlardan 417 nəfəri keçid balını toplayıb.

# Dünya Bankı ilə gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib



Martın 9-da Təhsil naziri Emin Əmrullayev Dünya Bankının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Sara Maykl ilə görüşüb.

Görüş zamanı Dünya Bankının təhsil sahəsində həyata keçirdiyi layihələr haqqında məlumat verilib və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

# “Bu gün təhsildə nələr dəyişməlidir”

## Təhsil Nazirliyi yanında İctimai Şuranın ADPU-da keçirilən “dəyirmi masa”sında bu mövzu müzakirə olunub

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Təhsil Nazirliyi yanında İctimai Şuranın “Bu gün təhsildə nələr dəyişməlidir” mövzusunda “dəyirmi masa”sı keçirilib.

Dəyirmi masada ADPU-nun rektoru, professor Cəfər Cəfərov, sosial və humanitar məsələlər üzrə prorektor, professor Fikrət Rzayev, elm və innovasiyalar üzrə prorektor, professor Asəf Zamanov, tədris işləri üzrə prorektor, dosent Eldar Aslanov, Tədris departmentinin müdiri, dosent Sənan Əliyev, Təhsil nazirinin müşaviri Elnur Nəsibov, İctimai Şuranın sədri, professor Şahlar Əsgərov, şuranın üzvləri və universitet nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, dosent İsrayil İsgəndərov iştirak edib.

Rektor C.Cəfərov ADPU-da son 5 ildə aparılan islahatlar və keyfiyyət dəyişikliklərindən, tələbələrin yüksək akademik göstəricilərindən, universitet məzunlarının müəllimlərin işə qəbulu imtahanlarında əldə etdikləri yüksək nəticələr haqqında statistik məlumatları diqqətə çatdırıb. Həmçinin ADPU-nun 100 ilin elm məbədi kimi təhsil və pedaqoji sferada oynadığı rolu xüsusi vurğulayaraq hazırda Bakıdakı 4



kampusu, bölgələrdəki 5 filialı ilə demək olar, bütün ölkəni əhatə edən böyük şəbəkəyə malik olduğunu qeyd edib. 100 ilin ənənələrinin müasir dövrün tələblərinə uyğun yaşadılması və ADPU-nun tədqiqat universitetinə çevrilməsi üçün aparılan sistemli işlərdən bəhs edən C.Cəfərov son zamanlar ali məktəbdə inzibati və pedaqoji vəzifələrin tutulmasında şəffaf seçkilər üsulunun tətbiq edildiyini vurğulayıb.

Rektor pandemiya dövründə ADPU-da tədrisin məsafədən təşkili ilə bağlı görülən işlər və tədrisin rəqəmsallaşdırılması sahəsində əldə olunan uğurlardan da danışıb.

Professor Şahlar Əsgərov isə pandemiya dövründə təhsilin bütün səviyyə və pillələrində yaranan məcburi dəyişikliklərdən söz açaraq ADPU-nun bu sahədəki fəaliyyətini yüksək qiymətləndirib. ADPU-nun müəllim-tələbə münasibətlərinin qurulmasındakı yeni yanaşmalarının faydasından danışan İctimai Şuranın sədri şura ilə universitet arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb, gələcəkdə bu əməkdaşlığı genişləndirmək üçün perspektivlərdən danışıb və öz təkliflərini verib.

Təhsil nazirinin müşaviri Elnur Nəsibov ADPU-nun müəllim hazırlığındakı aparıcı rolundan bəhs edib, son dövrlərdə aparılan islahatlar nəticəsində universitet məzunlarının əmək bazarında özünü yüksək səviyyədə realizə etdiklərini bildirib. Həmçinin, hazırda təhsil sahəsində gedən qlobal dəyişikliklərdən, bu sahədə Azərbaycan dövlətinin strateji yanaşması və təhsilə dair dövlət proqramları haqqında məlumat verib, son bir ildə pandemiya ilə bağlı yaranan yeni situasiyada distant təhsil texnologiyalarının tətbiqi məsələlərindən danışıb.

Daha sonra İctimai Şuranın üzvləri, universitet nümayəndələri mövzu ətrafında çıxışlar edibələr.

Sonda C.Cəfərova və İctimai Şura üzvlərinə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının “100 illik yubiley” döş nişanı təqdim edilib.

# Gender bərabərliyinə dair dinləmə keçirilib

**Təhsil siyasətində qadınların təhsilin bütün pillə və səviyyələrində fəal iştirakı və karyera inkişafı əsas prioritetlərdən biridir**



**Martın 4-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" Qanunun icra vəziyyəti: imkan və çətinliklər" mövzusunda dinləmə keçirilib.**

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan dövlətinin hadisələrə adekvat reaksiya verdiyini, bütün sahələrdə dövrün reallıqlarını nəzərə almaqla yeni çağırışlar, qərar və qanunlar qəbul etdiyini vurğulayıb. Komitə sədri "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" Qanunla bağlı təkliflərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə geniş məruzə edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" Qanunun icrasında mövcud olan imkan və çətinliklər barədə danışıb.

Daha sonra Təhsil nazirinin müavini Firudin Qurbanovun "Təhsildə gender bərabərliyinin təmin olunması" mövzusunda məruzəsi dinlənilib. Nazir müavini Azərbaycan cəmiyyətində mövcud olan gender stereotiplərinin insanların peşə seçiminə də təsir göstərdiyini qeyd edib. Qız və oğlanlar arasında təhsil maraqlarının müxtəlif olduğunu deyən Firudin Qurbanov bildirib ki, oğlanlar adətən daha çox təbiət, texniki, tarix-humanitar fənlərə, qızlar isə tarix, ədəbiyyat, ana dili və xarici dil kimi humanitar fənlərə, eyni zamanda müəllim və həkim ixtisaslarına meyllidirlər.

Nazir müavini qeyd edib ki, gender məsələləri ilə bağlı dövlətin yürütdüyü siyasətin əsas məqsədlərindən biri də gender stereotiplərinin aradan qaldırılması və insanlara onların fərdi qabiliyyətləri və xüsusiyyətlərinə görə münasibətin formalaşmasıdır. Firudin Qurbanovun sözlərinə görə, təhsil siyasətində qadınların təhsilin bütün pillə və səviyyələrində fəal iştirakı və karyera inkişafı əsas prioritetlərdən biridir. Məhz bu siyasətin nəticəsidir ki, təhsil müəssisələrinin rəhbərləri, təhsilalanlar və təhsilverənlər arasında qadınların sayı ilbəil artmaqdadır. Nazir müavini məruzəsində qızların təhsildən yayınma hallarının minimuma endirilməsi məqsədilə ümumi təhsil müəssisələrində görülən qabaqlayıcı tədbirlər barədə də məlumat verib.

Çıxışının sonunda təhsil sistemində gender bərabərliyinin təmin edilməsi istiqamətində aparılan ardıcıl işlərin bundan sonra da davam etdiriləcəyini vurğulayan Firudin Qurbanov Təhsil Nazirliyi tərəfindən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanuna bir sıra dəyişiklilərin edilməsi ilə bağlı təklifləri diqqətə çatdırıb.

Daha sonra daxili işlər nazirinin müavini İsmət Əliyevin "Hüquq-mühafizə müstəvisində gender bərabərliyinin təmini", əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimovun "Əmək qanunvericiliyi sahəsində gender bərabərliyinin gələcək təminatları" mövzularında məruzələri dinlənilib. Məruzəçilər sözügedən qanunla bağlı bir sıra təkliflər irəli sürüblər.

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, komitə üzvləri Sevil Mikayılova, Tamam Cəfərova və Könül Nurullayeva, "Təmiz Dünya" Qadınlara Yardim İctimai Birliyinin sədri Mehriban Zeynalova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov rəy və təkliflərini bildiriblər.

Tədbirdə geniş müzakirələr aparılıb.



# Azərbaycan müəlliminin layihəsi dünyanı dolaşır

**Son illər Təhsil Nazirliyinin təşkilatçılığı və dəstəyi ilə bir sıra layihələr həyata keçirilir ki, bunlardan biri də "eTwinninq" layihəsidir. Bəs, "e Twinninq" layihəsi nədir?**

**"eTwinning" Avropa İttifaqının Fasiləsiz Təhsil Proqramının tərkib hissəsidir və pedaqoji işçilərə ünsiyyət qurmaq, əməkdaşlıq etmək, layihələr yaratmaq, icra etmək və Avropada ən maraqlı öyrənmə icmasının bir hissəsi olmaq imkanı verir.**

**Layihə Milli Keyfiyyət və Avropa Keyfiyyət nişanlarına layiq görülüb**

Qeyd edək ki, Azərbaycan 2013-cü ildən Avropa İttifaqının qonşuluq siyasətinə əsasən eTwinning Plus layihəsinə üzv olmuşdur. Layihə 2017-ci ildən Təhsil Nazirliyinin dəstəyi ilə Təhsil Sistemlərinin İnfromasiyalaşdırılması İdarəsi tərəfindən icra olunur.

Artıq bir neçə ildir ki, Azərbaycan müəllimləri, şagirdləri layihə çərçivəsində bir çox ölkələrin iştirak etdiyi müsabiqələrdə uğurlu nəticələr əldə edir. Bakı Avropa Liseyinin müəllimi "Əməkdar müəllim", "eTwinning"-in Azərbaycandakı səfiri Mətanət Əhədova da qalib layihə müəlliflərindəndir. Belə ki, "Microsoft" eksperti olan M.Əhədovanın "The Champion of the World" layihəsi "eTwinninq" mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilərək qalib olub.

## "The Champion of the World" layihəsi

Layihə 2019-cu ildə yaradılıb. Müəllifləri Azərbaycandan Mətanət Əhədova, Ruminiyadan isə Karmen Butasiudur. Layihədə 12 ölkədən - Azərbaycan , Rumıniya, Türkiyə, Ukrayna, Xorvatiya, Portuqaliya, Şimali Makedoniya, Litva, Albaniya, İtaliya və Moldovadan 32 müəllim və 300-ə yaxın şagird iştirak edib. Layihənin yaradıcısı və ideya rəhbəri Bakı Avropa Liseyinin ingilis dili müəllimi Mətanət Əhədovadır.

Layihənin ideyası məşhur ingilis uşaq yazıçısı Roald Dahlın " Danny - the Champion of the World" əsəri əsasında qurulmuşdur.

Layihənin əsas məqsədi şagirdlərdə mütaliə, oxu vərdişləri yaratmaq, araşdırma və tənqidi bacarıqları aşılamaq, gənclərdə ədəbiyyata, mütaliəyə sevgi və həvəs artırmaq, onlarda İKT bacarıqlarını inkişaf etdirməkdir.

Layihə çərçivəsində şagirdlər R.Dahlın " Danny - the Champion of the World" (Danni - Dünya Çempionu) əsərini orijinalda (ingilis dilində) mütaliə, əsərin qəhrəmanlarını və hadisələrini təhlil etmişlər. Bundan başqa şagirdlər müxtəlif onlayn diskussiya və müzakirələrdə iştirak edərək əsərin illustrasiya müsabiqəsini keçirmiş, əsərə aid onlayn oyunlar yaradaraq müxtəlif ölkələrdən olan uşaqlarla yarışlarda iştirak etmişlər. Hər ölkə əsərin hissələrini öz ana dilinə tərcümə edib, əsəri tamaşalaşdırıb, uşaq hüquqlarına aid UNİCEF petisiyasında iştirak edib.

Eyni zamanda layihənin bloqu, vebsaytı, onlayn kitabxanası yaradılıb, valideyinlərə və uşaqlara müracətlər hazırlanıb. Şagirdlər inşa yazmaq, əsərin qəhramanlar xəritəsini düzəltmək və s. tapşırıqları uğurla yerinə yetiriblər.

Pandemiyanın başlanması, iştirakçıların çoxluğu layihənin müvəffəqiyyətlə davam etməsinə və sona qədər aparılmasına mane olmayıb. Layihə qarşılıqlı əməkdaşlıq, dostluq və müştərək şəraitdə 2020-ci ilin iyun ayında bitib. Sentyabr ayında Milli Keyfiyyət və Avropa Keyfiyyət nişanlarna layiq görülüb. Bu ilin fevral ayında isə layihə gənclərdə ədəbiyyat və mütaliəyə sevgi və həvəs yaratdığına görə eTwinning -in xüsusi "Peyo Yavorov" adına mükafatına layiq görülüb.

## "Ölkəmizi və təhsilimizi dünyada uğurla təmsil etdiyimə görə fəxr edirəm"

Layihənin müəllifi Mətanət Əhədova "eTwinninq" layihəsinin əhəmiyyətindən, bu layihədə iştirakından söhbət açıb: "2013-cü ildən eTwinning-ə qoşulmuşam. 73 layihədə iştirak etmişəm və onlardan 12 layihənin müəllifiyəm. 18 layihəyə görə həm Avropa, həm də Milli keyfiyyət nişanı, 5 layihəyə görə isə Milli keyfiyyət nişanı almışam. "eTwinning"də iki dəfə Avropa mükafatına layiq görülmüşəm. 2017-ci ildə " Young Scientists", 2021-ci ildə isə "The Champion of the World" layihələrim qalib layihələrdəndir. Beynəlxalq və milli konfransların iştirakçısıyam. "eTwinning"in 4 layihə səfirindən biriyəm.

Onu da deyim ki, cari ildə "eTwinning" layihəsi çərçivəsində ölkələr üzrə ümumilikdə 118 mindən çox layihə mükafatlandırmada iştirak edib. 870 layihə Avropa Prizinə nominant olub. Onlardan yalnız 8 layihə Avropa Mükafatına layiq görülüb. Bu 8 layihə arasında Azərbaycanın "The Champion of the World" layihəsinin də olması bizə xüsusi qürur hissi verir. Ölkəmizi və təhsilimizi dünyada uğurla təmsil etdiyimizə görə fəxr edirəm".

## Bakı Avropa Liseyi iki dəfə "Avropa Məktəbi" adına layiq görülüb"

Mətanət Əhədova çalışdığı məktəbin-Bakı Avropa Liseyinin iki dəfə Avropa Məktəbi adına layiq görüldüyünü də sözlərinə əlavə edib: "Layihədə işləməyim mənə Avropanın müxtəlif ölkələrindən olan müəllimlərə eyni komandada olmaq şansı yaratdı. Bundan başqa layihə bizə müxtəlif ölkələrdən olan həmkarlarla əməkdaşlıq və fikir mübadiləsi aparmağa, şagirdlərimi bu əməkdaşlığa cəlb etməyə, onlarda mütaliəyə maraq oyatmağa, xarici dildə danışmaq və fikir yürütmək bacarıqları aşılamağa şərait yaratdı".

**Niyazi RƏHİMOV**

# Sülh və gələcəyə hesablanan siyasi kurs

**Azərbaycan özünün son 200 illik tarixi ərzində çox ciddi siyasi proseslərə şahidlik edib. Tariximizin ayrı-ayrı mərhələlərində düşmən qüvvələrin müxtəlif hücumlarına, məkrli planlarına hədəf olan Azərbaycan bununla belə yaşadığımız coğrafi məkanda və eləcə də müasir beynəlxalq münasibətlər sistemində özünün multikultural dəyərlərə, humanizm ideyalarına, birgəyaşayış normalarına sadiqliyi, başqa milli-etnik dəyərlərə tolerant münasibəti ilə seçilib və bu siyasət dünya birliyi, sivil ölkələr tərəfindən yüksək qiymətləndirilib. Dünya birliyinə o da məlumdur ki, Azərbaycan son 30 ildə Ermənistanın şovinist, düşmənçilik siyasəti, hərbi ekspansiyası ilə nəticələnmiş ərazilərimizin işğal faktı ilə yaşayıb və yalnız 2020-ci ilin 27 sentyabrından erməni təxribatlarına qarşı Müzəffər Ordumuzun keçirdiyi uğurlu əks-hücum əməliyyatları ilə Böyük Zəfərə imza atıb.**

## Azərbaycan birgəyaşayış modelinin universal nümunəsidir

Bu qələbə həm də bütün dünyada ərazilərin toxunulmazlığı prinsipinin, hər bir insanın öz doğma, əzəli yurdunda yaşaması hüququnun bərpa olunması yolunda tarixi ədalətin təntənəsidir. Azərbaycan 44 günlük Vətən müharibəsində yeni reallıqlar yaratdı. Bu reallığı Prezidenti İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün təşkil olunmuş mətbuat konfransında bir daha dünya birliyinin diqqətinə çatdırdı: "İndi isə, mən deyirəm ki, yeni reallıq yaranıb və bu reallığı biz yaratdıq. Bu reallıqla Ermənistan və eyni zamanda, bütün başqa ölkələr barışmalıdırlar, hesablaşmalıdırlar. İndi Ermənistan qarşısında bir neçə seçim var və onların arasında Ermənistan üçün ən məqbul seçim 10 noyabr Bəyanatının müddəalarını icra etməkdir. Əks-təqdirdə, onlar üçün daha da böyük problemlər yarana bilər".

### Revanşist planları Ermənistanı intihara aparan yoldur

Azərbaycanın yaratdığı reallıqların ən mühüm nümunələrindən biri regional təhlükəsizliyə, xalqların dinc yanaşı yaşamasına xidmət edən, müharibə cəhdlərinə birdəfəlik son qoyan və davamlı sülhə nail olunmasıdır. Birmənalı olaraq qeyd edək ki, Ermənistanın gələcəyi birgəyaşayış normalarına əməl etməsindən və revanşist ideyalardan əl çəkməsindən keçir. Çünki bu revanşist planları Ermənistanı intihara aparan yoldur.

Monoetnik Ermənistanın bir sıra müharibə quzğunlarının, öz xalqını uçuruma salan üzdəniraq "lider"lərinin illərlə xalqların birgə yaşamasının qeyri-mümkünlüyünə dair sərsəm, heç bir gələcəyi olmayan cəfəng bəyanatlarına cavab olaraq 44 günlük Vətən müharibəsinin nəticələri Ermənistan üçün ayıldıcı dərs olmalıdır. Ermənistandan fərqli olaraq Azərbaycan tarixən müxtəlif xalqların və etnik qrupların birgə yaşamasına şərait yaradan, fəqli dinlərə, mədəniyyətlərə sahib xalqların birgəyaşayış modelini dövlət səviyyəsində dəstəkləyən ölkə kimi tanınıb. Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün təşkil olunmuş mətbuat konfransında ölkəmizin birgəyaşayış ənənəsinə sadiqliyini nümayiş etdirdi: "Bizim xalqlar sülh şəraitində yaşamalıdırlar. Bundan sonra Azərbaycan və erməni xalqlarının birgə yaşaması ilə bağlı aydın təsəvvürlər var. Azərbaycanda minlərlə erməni yaşayır. Bizim erməni xalqı ilə birgə yaşamağımızın böyük tarixi vardır. Həm Ermənistanda, həm Azərbaycanda, həm başqa ölkələrdə. Misal üçün, Gürcüstanda elə kəndlər var ki, orada azərbaycanlılar və ermənilər bir kənddə yaşayırlar. Biz əməkdaşlığa açıq olan ölkəyik və Azərbaycanda müxtəlif xalqların nümayəndələri əsrlər boyu bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır".

**"Biz əməkdaşlığa açıq olan ölkəyik və Azərbaycanda müxtəlif xalqların nümayəndələri əsrlər boyu bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır"**

**"Bu gün Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, bölgədə sabitliyin tam bərqərar olması üçün əməli addımlar atır"**

### Birgəyaşayış modelinin universal nümunəsi

Azərbaycanda tarixən bütün xalqların yaşamaq hüququ təmin edilib, hüquq və azadlıqları Konstitusiyamızda təsbit olunub. Azərbaycanda heç zaman digər dillərdə danışan xalqlara qarşı ayrı-seçkilik, dini dözümsüzlük halları müşahidə olunmayıb. "Azərbaycanda yaşayan bütün millətlər eyni hüquqlara malikdirlər. Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır. Azərbaycanda fərqli dildə danışan insanların hər cür hüquq və imtiyazları mövcuddur. Onların təhsilə çıxışları təmin edilir. Nəzərə alaq ki, həmin ərazilərdə yaşayan erməni icması öz aralarında erməni dilində danışa bilərlər, sovet dövründə bizim o bölgədə erməni dilində qəzetlər dərc edilirdi, orada xüsusi proqramlar var idi. Digər bütün dillər kimi erməni dili də Azərbaycanda qorunacaqdır".

Prezident İlham Əliyevin Azərbaycanın çoxmillətli bir dövlət olduğunu, burada yaşayan bütün millətlərin əmin-amanlıq içərisində yaşadığı kimi ermənilərin də bir Azərbaycan vətəndaşı olaraq sülh şəraitində yaşaya biləcəyini keçirdiyi mətbuat konfranslarında vurğulaması Azərbaycanın nə qədər tolerant bir ölkə olduğunun sübutudur. Monoetnik bir ölkə olan Ermənistandan fərqli olaraq Azərbaycan bu tolerantlıq nümunəsi ilə tarixən dünyada birgəyaşayış modelinin universal nümunəsi olmuşdur. Belə ki, ölkəmizdə yaşayan bütün millətlər sülh şəraitində yaşayırlar və bərabər hüquqlara malikdirlər.

### Davamlı sülh naminə

44 günlük Vətən müharibəsinin nəticələri bütün dünyaya Azərbaycanın yaranmış indiki reallıqda sülhə, beynəlxalq hüquqda təsbit olunmuş ölkələrin dinc yanaşı yaşaması prinsiplərinə nə qədər sadiq qaldığını nümayiş etdirdi. Həm də onu göstərdi ki, davamlı sülh modeli region və eləcə də bütün dünya üçün ən güclü nemətdir, bu gün bütün dünyanı fəlakətdən qurtaracaq yeganə ümumbəşəri dəyərdir. Buna görə də davamlı sülhə nail olmaq bu gün ən prioritet vəzifədir. Və bu dəyər eyni zamanda regionun gələcək inkişafını təmin edəcək əsas amildir. Birgəyaşayış prinsipi ilə əməkdaşlıq edilməsi, bu əməkdaşlıqla dayanıqlı inkişafa zəmin hazırlanması davamlı sülh üçün atılacaq doğru addımlardır və bu addımların hər biri parlaq gələcəyə xidmət edəcəkdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "düşmənçilik səhifəsi çevrilməlidir. 10 noyabr tarixində imzalanmış bəyanat bunun üçün zəmin yaradır. İmzalanmış Bəyanata sadiqlik nümayiş etdirməklə regionda sülh təmin olunacaq".

Şübhəsiz ki, regionda təhlükəsizliyin təmin olunması və inkişafın davamlı xarakter almasında mühüm əhəmiyyət daşıyan birgəyaşayışın əsas üsulu əməkdaşlıqdır. Ölkə rəhbərliyi Böyük Qələbənin yaratdığı tarixi şəraitdən istifadə edərək yeni regional əməkdaşlıq formulunu təklif edir: "Azərbaycanın məqsədi artıq üçtərəfli qaydada - Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün manələrin aradan qaldırılmasıdır. Azərbaycanın yaratdığı bu imkan baş tutarsa, Ermənistan da mənfəət əldə edəcək, onlar da sülhün xeyrini görəcəklər".

### Atılan addımlar gələcəyə xidmət etməlidir

Digər tərəfdən, qeyd olunmalıdır ki, birgəyaşayış prinsipi dayanıqlı inkişaf üçün əsas yaradır. Azərbaycanın bu məsələyə yanaşması da ölkəmizin bir daha ümumi dəyərlər sisteminə nə qədər bağlı olduğunu nümayiş etdirir: "Prioritet vəzifələrdən biri uzunmüddətli sülhün təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsidir, müharibədən heç dörd ay keçməmiş artıq rəsmi şəxslər - Ermənistan və Azərbaycan rəsmi şəxsləri arasında təmaslar qurulur, görüşlər keçirilir, bəzən açıq formatda, bəzən qeyri-rəsmi formatda. Ancaq bu proseslər gedir və bu proses müsbət istiqamətdə gedir",-deyə ölkə başçısı bildirib.

Prezident İlham Əliyev xarici və yerli mətbuat nümayəndələri ilə görüşdə regionda qarşıdurmalara deyil, inteqrasiya proseslərinə təkan verilməsi zəruriliyini diqqətə çatdırıb: "Bu gün atılan addımlar gələcəyə xidmət etməlidir. Bu gün inteqrasiya barədə danışanda biz indi rusiyalı sülhməramlı qüvvələrin yerləşdiyi sahədə inteqrasiyanın istənilən formasına hazırıq. Bundan sonra da müxtəlif inteqrasiya variantları təklif oluna bilər. Xankəndinin və hazırda erməni əhalisinin yaşadığı digər ərazilərin inteqrasiyası labüd prosesdir".

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan birgəyaşayış formulunun müsbət nəticələrindən istifadə edərək uzunmüddətli sülh və gələcəyə hesablanan siyasi kursun davam etdirilməsində qətiyyətlidir. Çünki bu kurs Azərbaycanın əsas təşəbbüskarı olduğu regional təhlükəsizlik sisteminin qurulması və möhkəmləndirilməsinə xidmət edir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, "Bu gün Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, bölgədə sabitliyin tam bərqərar olması üçün əməli addımlar atır".

**Oruc MUSTAFAYEV**

# SABAH təhsilimizdə yeni səhifə açır

## magistraturasına tələbə qəbulu başlayır

**Yeni ixtisaslar arasında Bakı Dövlət Universitetində İsrailin Texnologiya İnstitutu ilə birgə işlənib hazırlanmış kompüter elmləri və texnologiyalar ixtisası, Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) elektron kommersiya, Azərbaycan Dövlət Pedaqoji Universitetində təlim və tədrisin təşkili və metodikası, Azərbaycan Memarlıq və İnşaat Universitetində memarlıq və dayanıqlı şəhərsalma, region planlaşdırması, Azərbaycan Texniki Universitetində müasir dövrümüz üçün çox vacib olan nəqliyyat və logistika ixtisaslarıdır.**

**Məlum olduğu kimi, 2014-cü ildən tətbiqinə başlanan Savadlı, Bacarıqlı, Hazırlıqlı gənclərin uğur salnaməsinin əsasını qoyan SABAH qrupları ötən müddət ərzində ölkəmizdə ali təhsil sisteminin inkişafına öz töhfələrini verib. Bu vaxta qədər SABAH qruplarının bakalavr səviyyəsini yüzlərlə gənc bitirib və onların sorağı indi ölkəmizin müxtəlif ali təhsil müəssisələrindən, eləcə də ali təhsilin növbəti pilləsini davam etdirdikləri dünyanın nüfuzlu universitetlərindən gəlir. SABAH öz tarixində növbəti ilkə imza atmaq ərəfəsindədir. Söhbət ilk dəfə olaraq SABAH qruplarının magistratura pilləsinə tələbə qəbulundan gedir. Bu yenilik gənclərimizə hansı imkanları yaradacaq? Gözləntilər nədir? Bu və ya digər suallara martın 5-də Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun moderatorluğu ilə Təhsil Nazirliyinin “Facebook” səhifəsi üzərindən baş tutan canlı müzakirə gedişində cavab tapmaq mümkün oldu.**




Cəsarət Valehov müzakirənin “SABAH magistraturasına hazırsanmı?” sualı ətrafında davam etdiriləcəyini bildirib və əlavə edib ki, hazırda bizim gənclərin böyük bir hissəsi magistratura imtahanlarının birinci mərhələsini yekunlaşdırıb və onların nəticələri bəllidir. Növbəti pillədə onları maraqlandıran sual harada oxumaqdır. C.Valehova görə bu sualın ən yaxşı cavabı SABAH magistraturasıdır.

C.Valehov müzakirənin əvvəlində bu günlərdə ABŞ-ın nüfuzlu Stanford Universitetinin magistraturasına qəbul olan Məhəmməd Şirinovu təqdim edib və ona uğurlar arzulayıb.

Daha sonra canlı müzakirədə SABAH magistraturasına qəbul olmaq, orada oxumağın üstünlükləri kimi məsələlərə aydınlıq gətirilib.

### Nəticə əsaslı magistr proqramları

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli SABAH qruplarının magistraturasına qəbulun təhsilimizə, gənclərə yaradacağı üstünlüklər barədə ətraflı məlumat verib.

N.Məmmədli qeyd edib ki, yeni magistr proqramlarının təsis edilməsi ilə bağlı Təhsil Nazirliyi tərəfindən qərar qəbul olunub və 7 ixtisas sahəsi seçilib ki, bu ixtisaslar üzrə magistr ixtisaslaşmaları açılacaq. Bu ixtisaslaşmalar keyfiyyətcə tamamilə yeni, ümumiyyətlə, bizim ixtisaslaşma təsnifatında olmayan, müasir dünyanın mövcud çağırışlarına, trendlərinə uyğun olan yeni ixtisaslardır. Bu ixtisasların Azərbaycan üçün hazırlanması çox vacib və əhəmiyyətlidir. “Biz hesab etdik ki, magistratura səviyyəsinə məhz bu yeni ixtisaslarla başlasaq daha yaxşı olar. Yeni deyəndə nə başa düşülür? Bizim buna qədər də magistr proqramlarımız var idi, bir sıra çoxlu sayda ixtisaslar üzrə magistr hazırlığı aparılırdı. Amma bu ixtisaslarda tamamilə yeni məzmundan istifadə olunur. Bu məzmun demək olar ki, dünya universitetlərinin yazıb-yaratdığı mövcud kurikulumlara, tədris proqram və vəsaitlərinə uyğun hazırlanmış magistr proqramlarıdır”.

N.Məmmədli hesab edir ki, burada söhbət təkcə bu ixtisaslar üzrə biliyin verilməsindən getmir. Eyni zamanda verilən biliyin məhz səriştəyə dayanıqlı olmasından söhbət gedir. “Burada verilən ixtisasların böyük əksəriyyəti xüsusilə yüksək keyfiyyətli əmək bazarı üçün mütəxəssis yetişdirməyə, həm də növbəti mərhələdə akademik mühitə hazırlanmağa şərait və imkan yaradacaq. Yəni bu, nəticə əsaslı magistr proqramı olacaq. Eyni zamanda çox yüksək səviyyəli akademik biliklər vermiş olacaq”.

### “Dünyanın nüfuzlu universitetlərindən müəllimlər dəvət edəcəyik”

Şöbə müdiri hesab edir ki, əlbəttə, bu cür biliklərin verilməsi, səriştələrin hazırlanması çox sayda resurslar tələb edir. Bu resurslardan, sözsüz ki, ən vacibi bu sahədə ixtisaslı müəllimlərin olmasıdır. “Bizim gözləntilərimiz xüsusilə ondan ibarətdir ki, biz bu müəllimləri dünyanın nüfuzlu universitetlərindən dəvət edəcəyik. Bizim universitetlərimizin müəllimləri və xarici universitetlərin müəllimləri ən müxtəlif elm sahələri üzrə gəlib burada dərs keçəcəklər”.

Şöbə müdiri universitetlərimizdə SABAH qruplarının magistraturasında açılacaq yeni ixtisaslar barədə qısa məlumat verib. Onun sözlərinə görə, yeni ixtisaslar arasında Bakı Dövlət Universitetində İsrailin Texnologiya İnstitutu ilə birgə işlənib hazırlanmış kompüter elmləri və texnologiyalar ixtisası, Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) elektron kommersiya, Azərbaycan Dövlət Pedaqoji Universitetində təlim və tədrisin təşkili və metodikası, Azərbaycan Memarlıq və İnşaat Universitetində memarlıq və dayanıqlı şəhərsalma, region planlaşdırması, Azərbaycan Texniki Universitetində müasir dövrümüz üçün çox vacib olan nəqliyyat və logistika ixtisaslarıdır. “Nəzərə alsaq ki, artıq işğaldan azad olunmuş ərazilərimiz bizim üçün tamamilə yeni imkanlar yaradır, hər iki ixtisas – həm memarlıq və inşaat, eləcə də regionların planlaşdırılması, nəqliyyat və logistika bizim üçün həyati əhəmiyyət kəsb edən məsələlərdir”. Bundan əlavə, Bakı Dövlət Universitetində kibertəhlükəsizlik, eyni zamanda Azərbaycan Dövlət Neft və Sənaye Universitetində müasir dünyanın ən mühüm trendlərindən biri olan süni intellekt ixtisasının yaradılması da nəzərdə tutulub.

### “SABAH magistraturasına qəbul olan tələbələr nə əldə edirlər?”

Təhsil Nazirliyinin sektor müdiri Leyla Xəlilova qeyd edir ki, bu gün tələbələrimiz üçün çox önəmli olan, yeni mərhələdə onların qarşısına çıxan yeni imkanlardan danışırıq. Çünki bakalavrdansonrakı mərhələ elə bir mərhələdir ki, artıq tələbə harada olmasını daha yaxşı dərk edir və qarşısında açılan imkanları daha yaxşı dəyərləndirməyə başlayır. “Günümüzün reallıqlarından biri odur ki, bir çox gənclərimiz müxtəlif səbəblərdən xaricdə təhsilə üstünlük verir. Amma xaricdə təhsilin maddi və mənəvi çətinlikləri var. Qlobal pandemiya da bu çətinliklərin bəzi hallarda qaçılmaz olduğunu göstərdi. Bizim qarşımızda duran əsas məsələlərdən biri məhz Azərbaycanda xaricə getmədən beynəlxalq standartlara uyğun, qlobal keyfiyyətdə ali təhsil imkanlarını yaratmaqdan ibarətdir, bu imkanlardan biri də məhz SABAH magistratura qruplarıdır”.

SABAH qruplarının kifayət qədər uzunmüddətli səmərəli fəaliyyət göstərdiyini və bir sıra uğurlar əldə etdiyini vurğulayan sektor müdiri bu ildən ilk dəfə olaraq Təhsil Nazirliyinin təşəbbüsü ilə SABAH magistr qruplarına start verildiyini diqqətə çatdırıb. “SABAH magistraturasına qəbul olan tələbələr nə əldə edirlər? Onlar müasir dünya trendlərində təhsilalma imkanı qazanır, innovativ ixtisaslar üzrə bilik və bacarıqlara yiyələnirlər. Eyni zamanda həm də xarici dilli mühitdə yüksək səviyyədə mənimsəmə imkanlarına sahib olurlar. Bundan əlavə, SABAH magistratura qruplarında həm xarici professor-müəllim heyəti, həm də çox güclü potensiala malik yerli müəllimlər dərs keçirlər. İstərdim ki, SABAH və sabah tipli proqramların sayı ölkədə artsın. Elə artsın ki, tələbələrimiz xaricə üz tutmadan da yerli ali təhsil müəssisələrində təhsil alaraq zəruri imkanlara sahib ola bilsinlər”.

### Yeni ixtisaslar gələcəyimiz üçün nələri vəd edir?

SABAH qruplarının İcra Komitəsi rəhbərinin müavini Eldar Qocayev SABAH qruplarında magistraturanın açılmasını zamanın tələbi kimi qiymətləndirir. İlk vaxtlarda SABAH qruplarının fəaliyyətə başlamasını Azərbaycan təhsili yeni bir nəfəs, yeni bir pəncərə, yeni bir yanaşma metodologiya, tədris proqramları baxımından tələb edirdi. Bu uğurun arxasında artıq yetişmiş Azərbaycan təhsil mühiti dayanırdı. Bu gün SABAH-da 2450-dən yuxarı tələbə var. 600-dən yuxarı professor-nüəllim heyəti çalışır. 2017-ci ildən bu yana SABAH məzunları dünyanın, demək olar ki, bütün regionlarına yayılmışdır. Onlar təhsillərini magistratura, doktoranturada və s. davam etdirirlər.

E.Qocayev qeyd edir ki, magistraturanın açılması artıq zərurətə çevrilmişdi, digər tərəfdən açılan ixtisaslara diqqət yetirsəniz, onlar müasir əmək bazarının tələblərindən doğan sahələrdir. Onlardan 5-i tamamilə yeni sahədir. “Çox yaxşı ki, bu ixtisaslar ilkin olaraq SABAH qruplarında açılır. Bunlar o sahələrdir ki, Azərbaycan iqtisadiyyatının qlobal iqtisadiyyata transformasiyasında, eyni zamanda əks proseslərin getməsi üçün körpü rolunu oynayacaq. Bu mənada burada yeni ixtisasların seçilməsini də çox uğurlu hesab edirəm. Bakalavr səviyyəsi açılanda da uğurlu ixtisaslar seçilmişdi, nəticədə SABAHın uğur hekayələri meydana gəlmişdi”.

SABAH magistratura proqramının potensialına gəlincə, E.Qocayev qeyd edir ki, Azərbaycan ali təhsil sistemində bu sahədə tədrisi yerinə yetirəcək xeyli kadr potensialı yetişib. Onlar bizim həm milli universitetlərimizdə, həm də xaricdə təhsil alıblar. Eyni zamanda xarici müəllimlərin də buraya gəlməsi, demək olar ki, çox uğurlu bir akademik mühitin yaranmasına vəsilə olacaq.

**Oruc MUSTAFAYEV**

# “Gənc nəsildə bacarıqları inkişaf etdirməliyik”




## Harvardlı alim Toni Vaqner “Yeni çağırışlar”ın qonağı olub

⇦ Əvvəli səh.1

### Toni Vaqner kimdir?

Görüşün əvvəlində Azərbaycanın görkəmli şairi Hüseyn Cavidin “Qız məktəbində” şeirindən ingilis dilində parça səsləndirilib. Proqramın aparıcısı, “T-network”-un koordinatoru Cəfər Mənsimi məşhur təhsil tədqiqatçısı Toni Vaqneri Hacı Zeynalabdin Tağıyevin Azərbaycanda yaratdığı və müsəlman şərqində qızlar üçün ilk dünyəvi təhsil ocağı sayılan Qızlar Məktəbinin təsviri qarşısından salamlayıb. Ən böyük hədiyyənin inkişaf, inkişafı dəstəkləmək olduğunu söyləyən C.Mənsimi təhsil təcrübələrini bölüşmək üçün “Yeni çağırışlar”da qonaq olduguna görə Toni Vaqnerə təşəkkürünü bildirib və alimi izləyicilərə yaxından təqdim edib.

Aparıcı Toni Vaqnerin Harvard Universitetində Dəyişiklik üzrə liderlik qrupunun qurucusu olduğunu və 10 ildən artıq qrupa rəhbərlik etdiyini, “Bill & Melinda Gates” Fondunun baş məsləhətçisi kimi fəaliyyət göstərdiyini, 20 ildən çox Harvard Universitetində müxtəlif vəzifələrdə çalışdığını, Harvard İnnovasiyalar Laboratoriyasında mütəxəssis işlədiyini diqqətə çatdırıb.Beynəlxalq qurumlardan əsas çıxış üçün dəvət alan Toni Vaqnerin bestsellerlər sayılan “Qlobal nailiyyət boşluğu” (Global Achievement Gap) kitabının müəllifi kimi 18 dilə tərcümə edilən “Yenilikçilərin yaradılması: Dünyanı dəyişdirəcək gənclərin hazırlanması” (Creating Innovators: The Making of Young People Who Will Change The World), o cümlədən “Qəlblə öyrənmək: Qeyri-ənənəvi təhsil” (Learning By Heart: An Unconventional Education), “Məktəblər necə dəyişir?” (How schools change?), “Uşaqlarımızı innovasiya dövrünə hazırlamaq” (Preparing Our Kids for The Innovation Era) kitablarının müəllifi, dünyaca məşhur film prodüseri Robert Kontonla birgə “Finlandiya fenomeni: Dünyanın ən təcrübəli məktəb sisteminin içində” (The Finland Phenomenon: Inside The World`s Most Surprising School System) adlı 60 dəqiqəlik sənədli filminin yaradıcısı olduğu da qeyd edilib.

### Bacarıqlar...

Təhsil tədqiqatçısı Toni Vaqner özünüzü ömür boyu öyrənən Vaqner kimi təqdim edirsiniz, maraqlıdır, nəyi öyrənirsiniz? sualına cavabında hər gün yaxşı insan olmaq üçün nə isə öyrənmək və öyrətmək, həyata dəyişiklik gətirməyə can atdığını bildirib. “Biz mümkün qədər gənc nəsildə insani bacarıqları inkişaf etdirməliyik. Əks halda, ənənəvi təhsili davam etdirsək, gələcəkdə insanların süni zəkayla müqayisədə şansı olmayacaq” deyə T.Vaqner vurğulayıb.

Eyni zamanda Vaqner bildirib ki, süni zəka vasitəsilə təhsili fərdiləşdirmək, şagirdlərin təhsillə baglı nailiyyətlərini qiymətləndirmək də mümkündür.

Bir çox dünyaca məşhur şəxslərin, eləcə də Toni Vaqnerin məktəbdən qovulduğunu və sonradan böyük ugur qazandığını necə izah edə bilər sualını yazıçı və alim çox maraqlı cavablandırıb. O bildirib ki, ənənəvi məktəblərdə təhsil aldıqca gənclərdə məlumat aclığı, hər şeyi bilmək, öyrənmək istəyi, kreativ düşünmə bacarığı azalır. Odur ki, bəzi insanlar sənaye növlü təhsilə qiyam, həmin təhsildən çıxıb öz öyrənmə üsulunu təklif edirlər, təcrübə qazanırlar. “Mən ənənəvi sistemdən uzaqlaşdım və esselər yazmağa başladım, öz yaradıcılıgımı ortaya qoydum. Bütün bunlar Harvard Universiteti, “Gates” Fondu tərəfindən bəyənildi və qiymətləndirildi”.

Toni Vaqner hazırda heç nəyin dəyişmədiyini, vəziyyətin daha da mürəkkəbləşdini söyləyib. Müxtəlif testlərin, qiymətləndirilmələrin nəticəsində müəllim və şagirdlərə təzyiq artıb. Görünən rəqabətin fonunda şagird və tələbələr sıxlığı və təzyiqi hiss edirlər, bu da təhsilin keyfiyyətininin aşağı düşməsinə gətirib çıxarır.

Dünyada öncül yerləri tutan Finlandiya təhsil sistemindən hansı nəticəni çıxarmalıyıq sualına T.Vaqner cavabında bildirib ki, birinci növbədə müəllimlərin hazırlıq keyfiyyətini kəskin artırmaq, müəllimlərin cəmiyyətdə statusunu yüksəltmək lazımdır. Finlandiya təhsil sisteminin tamamilə fərqli şəkildə tərtib olunmasının əsas səbəbi kasıb iqtisadiyyatın köklü şəkildə islah olunması məqsədini daşıyıb. Bunun üçün də uşaqların məhz innovator, yenilikci olaraq yetişdirilməsi təhsilin bugünkü inkişafına gətirib çıxarıb.

### Rəqəmsal portfel

Vaqnerin bu fikirləri çox diqqət çəkir: “Təhsilin keyfiyyəti testlərlə ölçülə bilməz. Təhsilin keyfiyyəti tələbələrin işi, performansı ilə ölçülür. Hər bir tələbənin rəqəmsal portfeli olmalıdır və o, məktəbdə həyata keçirilən fəaliyyətlərə qoşulmalıdır ki, digərləri də onun fəaliyyətini izləmək imkanına sahib olsun. Davamlı təhsil və məşğulluqla bağlı mən düşünürəm ki, ali təhsil ocaqları, işəgötürənlər, şirkətlər məktəbləri baxışdan keçirməli, audit etməlidirlər. Yəni rəqəmsal portfellər vasitəsilə məktəblərdə nə dərəcədə keyfiyyət standartlarına riayət olunduğunu, şagirdlərin iş keyfiyyətini izləmək imkanına sahib olmalıdırlar”.

### 7 həyati bacarıq

Tomas Vaqner “Qlobal nailiyyət boşluğu” kitabında təqdim etdiyi 7 həyati bacarıq dəstini “Yeni çağırışlar”da izləyicilərə sadalayıb. Yazıçı 1-ci bacarığın kritik düşünmə və problemləri həll etmək məharətinin olduğunu deyib. Dünyaya çox bilikli şagird deyil, biliklərini tətbiq, nailiyyətlər əldə edə bilən şagirdin gərəkliliyini önə çəkib. 2-ci bacarıq dəstinə kollektiv şəkildə müxtəlif şəbəkələr üzərindən işləmək və nüfuz vasitəsilə digərlərini öz arxasınca aparmaq bacarığının aid olduğunu bildirib. 3-cü dəstə çeviklik, tez dəyişən mühitə uyğunlaşma, qısa zaman ərzində vacib qərarlar qəbul etmək bacarığı aiddir.4-cü bacarıq dəstini Vaqner təşəbbüskarlıq, sahibkarlıq fərasəti kimi təqdim edib. “Gənc nəsil problemlərini anlayaraq onların həlli üçün bilik və bacarıq nümayiş etdirməsə süni zəka bu cavanları əmək bazarından sıxışdırıb çıxaracaq”- deyə Vaqner səslənib. 5-ci dəstə alim təsirli və səmərəli şəkildə oxu, yazı və şifahi ünsiyyət qurma, eləcə də dinləmə bacarığını aid edib və deyib ki, bu bacarıqlar olmazsa kollektiv iş, komanda fəaliyyəti də mümkünsüzdür. 6-cı bacarıq cəmiyyətdə baş verən informasiya partlayışı, informasiyanın kütləvi şəkildə çoxalması fonunda informasiyaya təsir etmək məharətidir. Şagird və tələbələr informasiya bolluğunda düzgün məlumat seçmək, təhlil etmək, qavramaq, qiymətləndirmək bacarığına sahib olmalıdırlar. Və nəhayət 7-ci dəst zəngin təxəyyülə sahib olmaq, məlumatlı olmaq bacarığıdır. Sual vermək bacarığını təməl prinsiplərdən hesab edən Vaqner deyib: “Sadaladığım 7 bacarıq tək 21 əsrin məşğulluq dəstinə yox, həmçinin fəal vətəndaş olmaq üçün çox zəruridir”.

Toni Vaqner təhsil işçiləri, valideyn olaraq gənc nəsildə sual vermək uçün həvəs oyatmağa, onları ciddi qəbul etməyə, şagirdlərin özlərini sualın cavablandırılması üçün axtarışlara cəlb etməyin vacibliyini dilə gətirib. O təklif edib ki, gənclər onları maraqlandıran sualları bloknot və ya jurnallarda qeyd etsinlər, suallar gündəliyi tutsunlar. Həmçinin Vaqner ixtisaslaşmış təhsilin əleyhinə olduğunu və daha çox bacarıqlara söykənən təhsil tövsiyə etdiyini bildirib.

### Qəlblə öyrənmək

Görüş zamanı növbəti maraqlı sualı cavablandıran Toni Vaqner söyləyib: “21-ci əsrdə insanın ruhuna, mənəviyyatına aid olan bacarıqlar var ki, nəinki şüurun, qəlbin məhsuludur. Söhbət intuisiya, qəlbən hiss edilən duyğular, maraqlardan, həmçinin təəssübkeşlik, qayğıkeşlik, hissləri, digər insanlara hörmətlə yanaşmadan gedir. Qəlbdən gələn bu bacarıqlar 21-ci əsrdə ön planda olacaq”.

### Toni Vaqner məktəb qurarsa...

Təhsil tədqiqatçısı T.Vaqner getdikcə məktəblərə marağın azalmasının səbəblərini tədris edilən fənlərdə, onların nə dərəcədə önəmli olmasında, bir çox təhsil işçisinin dünyada nəyin dəyişdiyinin fərqində olmamasında, beləliklə öz qınında qalmasında, müəllimlərin işlərinə görə məktəbdə, sinif otağında divarlar arasında təcrid olunmasında gördüyünü bildirib. “Tənhalıq innovatorluğun, inkişafın, yenilikçiliyin bir nömrəli düşmənidir”, - Vaqner söyləyib.

Toni Vaqner bir məsələyə də diqqət çəkib ki, müasir məktəblərin əsas amillərindən biri də təhsilə nə qədər vaxt sərf etməyi nəzərə almalarıdır. Məktəblərdə vaxt yox, bacarıq yanaşması önə alınmalıdır. Şəhadətnamələr, diplomlar şagirdlərin təhsilə sərf etdiyi vaxtı deyil, onların bacarıqlarını qiymətləndirməlidir. Bu çətin çağırışın öhdəsindən bir müəllim gələ bilməz. Müəllimlər əməkdaşlıq etməli, kollektiv olaraq işləməlidir. Vaqner butün bu nüansları əsas götürərək yeni bir məktəb qurmağın mümkünlüyünü dilə ğətirib.

### 8 guşəli yeni çağırışlar

Proqramın ənənəvi “Təhsildə yeni çağırışları 8 guşəli ulduza bənzətsək, onun guşələri hansı çağırışlardan ibarət olar?” sualını Toni Vaqner belə cavablandırıb: “1-ci güşə-biz dünyanın necə dəyişdiyini görməliyik, 2-ci - 21 əsrdə təhsilin əhəmiyyətini başa düşməliyik, qiymətləndirməliyik, hamımız birlikdə öyrənmə prosesini dəyərləndirməliyik, uşaqlarımızın öyrənməsi üçün imkanlar yaratmalıyıq”. Aparıcı C. Mənsimi maraqlı müsahibə üçün qonağa minnətdarlığını bildirib və qeyd edib ki, Vaqnerin səsləndirdiyi və bütün dünyanın marağına səbəb olan 7 bacarıq əslində 8 guşəli ulduzun əsas parçasıdır.

Harvard Universitetində Dəyişiklik üzrə liderlik qrupunun qurucusu Toni Vaqner görüşün sonunda “Yeni Çağırışlar”ın aparıcısına, işçi heyətinə yaradılan fürsətə görə minnətdarlığını bildirərək deyib: “Biz bu gün bu sualları verməliyik və bilməliyik ki, dəyişən dünyada necə nəsil yetişdirməliyik. Buna gorə mən sizə təşəkkür edirəm və sizi təqdir edirəm”.

**Lamiyə ƏLİMƏRDANOVA**

# Psixoloji sağlamlıq kimdən və nədən asılıdır?

**Azərbaycan Respublikası Təhsil İnstitutunun mütəxəssisləri məktəbli intiharları ilə bağlı şərh veriblər. Belə ki, Təhsil İnstitutunun Strateji təhsil tədqiqatları və inkişaf layihələrinə rəhbərlik edən aparıcı elmi işçisi Könül Abaslı bildirib ki, dövləti, aidiyyəti qurumları və cəmiyyəti intihar və onun səbəbləri dərindən narahat edir. İntihar davranışına səbəb ola biləcək risk faktorlarının müəyyən edilməsi intiharların qarşısını almaqla əlaqəli həyata keçiriləcək təhlillərə istiqamət vermək və risk qruplarına müdaxilə etmək nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir.**

Özünə sui-qəsd cəhdlərinin və intihar prosesinin səbəbləri haqqında tam olaraq hamı tərəfindən qəbul edilən bir səbəb və izahat olmasa da müxtəlif faktorların təsiredici rolu haqqında geniş müzakirələr mövcuddur. Amerika Uşaq və Yeniyetmələr Psixiatriya Akademiyası tərəfindən təqdim edilən məlumatlarda 15-24 yaş arası uşaqlar, yeniyetmələr və gənc yetkinlərin ölümünə səbəb olan ikinci faktor kimi intihar göstərilir. İntihar etməyə cəhd göstərən uşaq və yeniyetmələrin əksəriyyətində xüsusilə depressiya kimi ruhi xəstəliklərin mövcudluğu qeyd olunur. Həmçinin, COVID-19 pandemiyası dövründə təhsil və digər fəaliyyətlərlə bağlı məhdudiyyətlərin yaranması, evdə yaranan gərginlik və izolyasiya kimi səbəblər məktəblilər arasında intiharların artmasına səbəb ola biləcək faktorlar qismində qiymətləndirilir.

ABŞ-ın Milli Uşaq Ölümləri Məlumat Bazası (NCMD) tərəfindən təqdim olunan hesabatda səbəblərin dəqiq bilinməməsi ilə bərabər pandemiya dövründə evəqapanmalar, təhsil prosesinin üzbəüz formada keçirilməsində yaranan məhdudiyyətlər, qayğı və dəstək xidmətlərinin təqdim olunmasında yaranan fasilələr uşaq və yeniyetmə intiharlarına gətirib çıxaran səbəblər siyahısında qeyd edilir. Əlavə olaraq, pandemiya dövründə evəqapanmalar və izolyasiya prosesi məktəblilərin həmyaşıdları və ya dostları ilə sosiallaşma fəaliyyətləri üçün internetdən və sosial şəbəkələrdən istifadəsini artırıb. Əlbəttə ki, sosial şəbəkələrdən istifadənin miqdarında yüksəlişlərin olması intihar risklərinin də çoxalmasına səbəb olub. Mövzu ilə əlaqəli aparılmış tədqiqat nəticələri intiharların artmasına səbəb olan faktorların tam olaraq müəyyənləşmədiyini göstərsə də sosial media istifadəsindəki artımın intiharı düşünmə və həyata keçirmədə təsirli ola biləcəyini göstərib. Xüsusilə, son zamanlarda müşahidə olunan intihar hadisələrində kiber zorakılıq da səbəblərdən biri olaraq vurğulanıb. Uşaq və yeniyetmələrin kiber zorakılığa məruz qalmasının intihar düşüncəsini və təşəbbüsünü artırdığı qeyd olunub.

Son aylarda Azərbaycanda məktəblilərin rəqəmsal texnologiyalardan və sosial şəbəkələrdən istifadəsi ilə bağlı aparılmış genişmiqyaslı bir tədqiqat nəticəsi onların bir qisminin kiber zorakılığa meyilli olduqlarını, bir qisminin isə kiber zorakılığa məruz qaldıqlarını göstərib. Əlavə olaraq sorğuda iştirak edən məktəblilərin ən az 22%-i internetdə narahatedici bir situasiya ilə, yəni kiber zorakılıq ilə qarşılaşdığı zaman bu vəziyyəti heç kimlə paylaşmadığını ifadə edib. İnternetdən istifadənin sərhədlərinə nəzarətin çətin olduğu bir dövrdə məktəblilərə hansı halların kiber zorakılığın göstəricisi olub-olmadığı barədə məlumat verilməsi mühümdür. Həmçinin, onların kiber zorakılıqdan necə qorunmağın mümkünlüyü və kiber zorakılıq ilə qarşılaşdıqları zaman mövcud durum ilə necə mübarizə apara biləcəkləri, dəstək üçün kimlərə müraciət edə biləcəkləri mövzusunda maarifləndirilməsi böyük əhəmiyyət kəsb edir. Bu işdə ən əsas öhdəlik isə valideyn və müəllimlərin üzərinə düşür. Vəziyyət ilə əlaqəli mübarizə məktəb-müəllim-valideyn üçbucağında aparılmalıdır. Həm müəllimlər, həm də valideynlər məktəblilərin virtual aləmdə təhlükəsizliyini təmin etmək üçün onlara lazımi bilik və bacarıqları aşılamaq işini qarşılıqlı əməkdaşlıq formasında həyata keçirməlidir. Bunun üçün isə həm müəllimlərin, həm də valideynlərin qarşılaşıla biləcək risklərin fərqində olmaları xüsusi əhəmiyyət daşıyır.

Təhsil İnstitutunun Elmi-pedaqoji tədqiqatlar mərkəzinin direktoru İlham Cavadovun verdiyi məlumata görə, hazırda Təhsil İnstitutu UNICEF ilə birgə “Böhran vəziyyətlərində məktəbdə ilkin psixoloji yardım bacarıqları” adlanan layihəni icra edir. Layihə uşaq və yeniyetmələr arasında müxtəlif psixi travmaların, qloballaşmanın mənfi təsirlərinin yaratdığı deviant davranış və suisid meyllərinin aradan qaldırılması yönündə məktəb psixoloqlarının şagird, müəllim və valideynlərlə aparmalı olduqları maarifləndirmə, profilaktika, diaqnostika, korreksiya, reabilitasiya və s. işlərin təşkili sahəsində bacarıqlarının formalaşdırılmasına istiqamətlənib. Aparılmış araşdırmalar nəticəsində müəyyənləşdirilib ki, uşaq və yeniyetmələrin özünə qəsd etməsinin səbəb və motivləri müxtəlifdir. Uşaq və yeniyetmələr bu yolla valideynlərinin, müəllimlərinin və yaxınlarının diqqətini öz problemlərinə yönəltməyə cəhd göstərir.

Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) gənclərin psixoloji sağlamlığının qorunması və bu sahədə maarifləndirmə işlərinin mütəmadi həyata keçirilməsini daim diqqətdə saxlayır. Bu istiqamətdə göstərilən fəaliyyətin davamı olaraq ARTİ 15 mart 2021-ci il tarixində, saat 19:00-da “Gənclərin psixoloji problemlərinin yaranmasına cəmiyyətin təsiri” adlı vebinar təşkil edəcək. Trabzon Dövlət Universitetinin müəllimi Dos. Dr. Mehmet Palancı vebinarda qonaq məruzəçi qismində çıxış edəcək. Mehmet Palancı, həmçinin MEM Psixologiya Mərkəzinin həmtəsisçisi və psixoloqu, Uşaq və Gənclərin Problemlərinin Araşdırılması Dərnəyinin qurucusudur. O, Karadeniz Texniki Universitetində Məsləhətçi psixoloq ixtisası üzrə doktorantura təhsili alıb. Gənc nəslin psixoloji cəhətdən sağlam yetişdirilməsi istiqamətində bir sıra araşdırma və təhlillərin müəllifi olan spiker vebinar zamanı uşaq və gənclərə psixoloji dəstəyin əhəmiyyəti, onların psixoloji vəziyyətinin və problemlərinin mənşəyinin müəyyən olunması, valideynlərin və cəmiyyətin bu prosesdəki rolu haqqında ətraflı məlumat verəcək. Türk dilində keçiriləcək tədbirdə iştirak üçün məhdud sayda yer mövcuddur. İştirak etmək üçün 13 mart 2021-ci il tarixinədək qeydiyyatdan keçməyiniz xahiş olunur.




**Amerika Uşaq və Yeniyetmələr Psixiatriya Akademiyası tərəfindən təqdim edilən məlumatlarda 15-24 yaş arası uşaqlar, yeniyetmələr və gənc yetkinlərin ölümünə səbəb olan ikinci faktor kimi intihar göstərilir. İntihar etməyə cəhd göstərən uşaq və yeniyetmələrin əksəriyyətində xüsusilə depressiya kimi ruhi xəstəliklərin mövcudluğu qeyd olunur.**

**Son aylarda Azərbaycanda məktəblilərin rəqəmsal texnologiyalardan və sosial şəbəkələrdən istifadəsi ilə bağlı aparılmış genişmiqyaslı bir tədqiqat nəticəsi onların bir qisminin kiber zorakılığa meyilli olduqlarını, bir qisminin isə kiber zorakılığa məruz qaldıqlarını göstərib. Əlavə olaraq sorğuda iştirak edən məktəblilərin ən az 22%-i internetdə narahatedici bir situasiya ilə, yəni kiber zorakılıq ilə qarşılaşdığı zaman bu vəziyyəti heç kimlə paylaşmadığını ifadə edib.**

**İnternetdən istifadənin sərhədlərinə nəzarətin çətin olduğu bir dövrdə məktəblilərə hansı halların kiber zorakılığın göstəricisi olub-olmadığı barədə məlumat verilməsi mühümdür. Həmçinin, onların kiber zorakılıqdan necə qorunmağın mümkünlüyü və kiber zorakılıq ilə qarşılaşdıqları zaman mövcud durum ilə necə mübarizə apara biləcəkləri, dəstək üçün kimlərə müraciət edə biləcəkləri mövzusunda maarifləndirilməsi böyük əhəmiyyət kəsb edir. Bu işdə ən əsas öhdəlik isə valideyn və müəllimlərin üzərinə düşür.**



Qarabağ gündəliyi

# Bu müharibənin nəticəsi ancaq qələbə ola bilərdi

## Qazi Buğday Azadə: "Vətən müharibəsində yalnız böyüklər savaşmadı, uşaqlarımız - şagirdlərimiz də savaşdı"

**Cəyirli kənd ümumi orta məktəbin direktoru Buğday Azadə müharibədən qayıdan minlərlə qəhrəman Azərbaycan oğullarından biridir. Döyüş yolu Tərtər, Suqovuşan, Talışkənd, Ağdərədən keçib.**

### "Geri qaytarmağa çalışsalar da, mən qayıtmadım"

"Müharibə istəyirik", - deyib dövlətə üz tutanlardan biri olub Buğday müəllim. 2020-ci ilin iyulunda baş verən Tovuz hadisələrindən təsirlənib rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib. Müharibə başlayarsa, iştirak etmək arzusunu bəyan edib. Sentyabrın 27-də müharibə başlayan kimi çağırış gözləmədən yenidən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə gedərək israrla müharibədə iştirak etmək istədiyini bildirib: "Mənə orda dedilər ki, hələlik ehtiyac yoxdur. Geri qaytarmağa çalışsalar da, mən qayıtmadım. Müraciətimi qəbul etmələri üçün israr etdim".

### "Məktəbdə vətənpərvərlikdən danışıb müharibədən kənarda qala bilməzdim"

İsrarının səbəbinə gəlincə, Buğday müəllim deyir ki, şagirdləri döyüşdüyü halda, onlardan geri qala bilməzdi: "Tarix müəllimiyəm. Şagirdlərimin əksəriyyətinə tarix fənnini sevdirmişəm. Bunun nəticəsidir ki, hər il məktəbimizdən ali təhsil müəssisələrinə qəbul imtahanlarında III ixtisas qrupu üzrə iştirak edənlər daha çox olur. Məktəbdə vətənpərvərlikdən danışıb müharibədən kənarda qala bilməzdim. Vicdanım buna yol vermirdi. Ailədə yaşlı atam və anam mənim himayəmdədir. Onlara pis təsir edə biləcəyindən ehtiyat edib evdə müraciətim barədə heç nə deməmişdim. Ancaq hazırlaşıb gedəndə xəbər tutdular".

### "Müharibənin qaçılmaz olduğunu hər birimiz bilirdik"

Torpaqlarımızın işğal altında olması Buğday müəllimə çoxdan ağır gəlməyə başlayıb, ta hərbi xidmət illərindən. Xocavəndin Kurapatkina kəndində hərbi xidmət keçən Buğday Azadə beynəlxalq miqyasda qəbul edilmiş sərhədlər daxilindəki torpaqlarımıza gedə bilməməyin nə demək olduğunu hələ o vaxt hiss edib: "Birinci Qarabağ müharibəsində hələ uşağıydım. Amma hərbi xidməti cəbhə bölgəsində keçdim.Torpaqlarımızın işğal altında olmasının nə demək olduğunu da elə orda dərk etdim. İşğal altında qalan ərazilərimizi azad etməyin zərurətini anladım. Gec, ya da tez müharibənin qaçılmaz olduğunu hər birimiz bilirdik. Bu işi gələcəyə saxlaya bilməzdik. Torpaqlarımızı biz geri almalıydıq və bu uğurda edəcəyimiz müharibənin iştirakçısı olmaq arzum elə o vaxtdan baş qaldırdı".

Ancaq o vaxt döyüşmək zərurəti yaranmadığından hərbi xidmətdən qayıdıb həyatına davam eləyib. Tarix və ictimaiyyət ixtisası üzrə bakalavr təhsili alan Buğday Azadə hərbi xidməti başa çatan kimi qonşu Cəyirli kəndində müəllimliyə başlayıb. 2011-ci ildən müəllimi olduğu məktəbdə yüksələrək direktor vəzifəsini tutub: "Məktəbimizin direktoru yaşı ilə əlaqədar olaraq təqaüdə çıxdı. Direktorların işə qəbulu müsabiqəsinə qatıldım və 50 bal toplayaraq 2019-cu ilin sentyabrından məktəbimizdə direktor vəzifəsinin icrasına başladım".

### "Torpaqların yiyəsi olaraq ürəklə, həsrətlə girirdik o yerlərə"

2020-ci ilin sentyabrından direktorluğa ara verərək vətənin sərhədlərini bərpa edən şagirdlərinə dəstək olmağa, onlarda ruh yüksəkliyi yaratmağa, yetirmələri ilə çiyin-çiyinə vuruşmağa gedib: "Müharibə itkisiz olmur. Hələ hücum edib itki verməmək heç mümkün deyil. Üstəlik, Vətən müharibəsi artilleriya savaşı idi. Düşmən bizimlə qarşı-qarşıya gələ bilmirdi. Elə istehkamlar qurmuşdular ki, onu yara biləcəyimizə qətiyyən inanmırdılar. Hər halda hələ də bu reallığı qəbul edə bilmirlər. Ancaq bir məqamı unudurlar ki, bir millət olaraq 30 il idi biz bu günü gözləyirdik. Qarşımıza nə qədər sədlər çıxartsalar da, hamısını aşacaqdıq. Torpaqların yiyəsi olaraq ürəklə, həsrətlə girirdik o yerlərə. Yaralı dostlarımızı çiynimizdə irəli aparırdıq özümüzlə. Bu müharibənin nəticəsi ancaq qələbə ola bilərdi, başqa cür olsa, təəccüb doğurardı".

### "Mən də şəhid ola bilərdim"

"Müharibənin ən çox təsir edən yanı silahdaşlarını, dostlaşdığın insanları itirməkdir", - deyir. Buğday müəllim həm müharibədə öz şagirdindən əmr almağın qürurunu, həm də onu itirməyin acısını yaşayıb: "Bölük komandirim kəndimizin oğlu, məktəbimizin şagirdi idi: Murad İbadov. Müharibədən qalan ən acı xatirələrimdən biri də məhz Muradla bağlıdır. Onun şəhid olduğu o günü, o döyüşü unuda bilmirəm. Ağdərə istiqamətində gedən döyüşlərdən birində şəhid oldu. Bəzən müharibədə onun ağırlığını tam mənasında hiss edə bilmirsən. Yaxınını, dostunu, şagirdini, həmkəndlini itirirsən. Heç nəyə baxmayaraq, ağır vəziyyətdə olan silahdaşlarına yardım etməyə can atırsan. Hətta əlindən heç nə gəlmədiyini bilə-bilə çiynində kilometrlərlə daşıyır, heç bir ağırlıq hiss etmirsən. Özünü düşünmür insan cəbhədə. Bir dəfə mövqeyimizi dəyişmək üçün gözlədiyimiz sığınacağa mərmi düşdü. Orda bir neçə şəhidimiz oldu. Mən də şəhid ola bilərdim, amma olmadım".

O, şəhid olmasa da, ailəsi onun şəhidliyini yaşayıb. Yanlışlıqla onun şəhid olduğunu düşünərək yasa batıblar: "Köhnə bir telefon götürmüşdüm cəbhəyə gedəndə. Dalğa tutanda arada ailəmlə danışırdım. Bir dəfə mərmi telefonlarımızın olduğu yeri dağıtdı. Danışmağa telefon olmadı. Evdən narahat olduqları üçün komandirimin telefonuna zəng ediblər. Arada onun telefonu ilə evdəkilərlə əlaqə saxladığımdan, nömrəsi onlarda vardı. Komandir isə yaralı olduğu üçün bizim yanımızda deyildi. Zəng vuran qardaşıma yaralı olduğunu, məndən xəbəri olmadığını deyib. Ailəm də mənim şəhid olduğumu düşünüb. Bir gün ərzində bu xəbərin acısı ilə qıvrılıblar. Yaxşı ki, onlara zəng etdim və sağ olduğumu öyrəndilər".



### Arxa cəbhə də döyüşürdü

Tarix müəllimi hesab edir ki, millət olaraq indiyə qədər bir çox uğurlara, qələbələrə imza atmış olsaq da, Qarabağ müharibəsində olduğu kimi həmrəy olduğumuz vaxtlar olmayıb: "Məncə, millətimiz məhz indi millət olaraq böyük bir yol keçdi. Sadəcə ön cəbhə döyüşmədi, arxa cəbhə də onunla bərabər döyüşdü. Hər kəs əlindən gələni etdi. İnsanlar sanki ön cəbhəyə getmək üçün bəhanə axtarırdılar. Min cür maneələri aşıb bizə yardım, yemək, ərzaq gətirənlər vardı. Buraxılmamalarına baxmayaraq, həyatlarını təhlükəyə atıb gəlirdilər. Bu müharibədə yalnız böyüklər savaşmadı, uşaqlar - şagirdlərimiz də savaşdı. Onlar da məktublarıyla ön cəbhədə - yanımızdaydılar. Bir neçə məktub aldım şagirdlərimizdən. Oxuyub bir-birimizə ötürürdük məktubları. O qədər maraqlıydı ki, onların sevgisini, dəstəyini hiss etmək. İnsana ruh verirdi hər söz, hər cümlə".

### Buğday Azadə böyüyür

Buğday müəllimin şəhid olduğunu düşündükləri gün ailə onu itirməyin acısını iliyinə qədər hiss etdiyindən olmalıdır ki, yanvar ayında ailəyə daxil olan körpəyə də "Buğday" deyiblər, əmisinin adını veriblər: "Mən müharibəyə gedəndə qardaşımın yoldaşı hamiləydi. Öz ürəyimdə düşünmüşdüm ki, mən müharibədən qayıtmasam, yəqin körpəyə mənim adımı verərlər. Ürəyimdən keçsə də, bu barədə heç kimə heç nə deməmişdim. Sağ-salamat qayıtsam da, yenə də qardaşım doğulan körpəsinə mənim adımı verdi. Mən Babəkin oğlu Buğdayın adını daşıyıram, artıq mənim də adımı daşıyan qardaşım oğlu var".

Cəyirliyə qonşu Çalov kəndində doğulub-böyüyən Buğday müəllimə atası Babək oğlu Buğdayın adını verib. O da adını qürurla daşıyıb. Qardaşı oğlu Buğday isə Vətən müharibəsinin qazisi Buğday Azadənin adını daşıyacaq.

### Həm ailəsində, həm məktəbdə vətənpərvərlər yetişdirir

2013-cü ildən ailə həyatı quran Buğday Azadə ocağında 2 övlad böyüdür. Məktəbdə isə 18 müəllimlə 164 şagirdin təhsil alması, vətənpərvər olaraq yetişməsi üçün çalışır. Məktəbdə tarix müəllimi kimi də vəzifəsinin öhdəsindən layiqincə gəlir. Hazırda direktoru olduğu məktəbdə - işinin başındadır: "3 ay şagirdlərimə dərs deyə bilmədim. Tarix fənni üzrə dərslərimizə fasilə versəm də, ən müasir tariximizin şərəfli səhifələrinin yazılmasında iştirak etdiyim üçün qürur duyuram".

Buğday müəllim həm ailəsində, həm məktəbdə vətənpərvərlər yetişdirəcəyindən məmnundur: "İnsanları məktəb yetişdirir. Bu prosesin də iştirakçısı olduğum üçün qürur duyuram. Sağlam düşüncəli, vətənsevər, millətinə və dövlətinə bağlı insanlar yetişdirmək üçün əlimdən gələni edəcəyəm".

Qeyd edək ki, Buğday Azadənin direktoru olduğu, şəhid Rasim Hüseynovun adını daşıyan Cəyirli kənd ümumi orta məktəbi Qarabağ uğrunda indiyədək 6 şəhid verib. Rasim Hüseynov, Ayaz Quliyev və Hicran Səmədov 1993-cü il şəhidləridir. Həmin vaxt itkin düşən Mirtalıb Babayevdən hələ də xəbər yoxdur. Elxan Məmmədov, Murad İbadov və əslən Cəyirli kəndindən olan Hacıqabul rayonu Muğan qəsəbə sakini Səbuhi Əhmədov isə Vətən müharibəsinin şəhidləridir.

**Ruhiyyə DAŞSALAHLI**



# Transfer.edu.az portalında qeydiyyatdan keç, asanlıqla universitetini dəyiş

## Tələbələr prosesin şəffaf və obyektiv keçirildiyini bildirir

**Bu günlərdə Təhsil Nazirliyi tərəfindən yaradılan *transfer.edu.az* portalına köçürülmək üçün müraciət edən tələbələrin sorğuları cavablandırılıb.**

**Qeyd edək ki, 2016-cı ildə yaradılan bu portal vasitəsilə tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin, magistratura səviyyəsində təhsilalanların köçürülməsi mümkündür. Portalın yaradılmasında məqsəd tələbələrin köçürülməsi prosesini sadələşdirmək, şəffaflığı təmin etməkdir. Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları daxil etməklə, köçürülmə meyarlarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər.**

**Onu da nəzərə çatdıraq ki, portala il ərzində iki dəfə-yay və qış semestləri dövrlərində müraciət etmək mümkündür.**

### Portala müraciət edən 1856 nəfərin sorğusu müsbət cavablandırılıb

Bu il portalda 5990 nəfər qeydiyyatdan keçib. 2721 nəfər isə köçürülmək üçün ərizə ilə müraciət edib. Onlardan 1856 nəfərin sorğusu müsbət cavablandırılıb. 865 nəfərin sorğusu isə imtina edilib. Sorğuları müsbət cavablandırılanlardan 59 nəfəri xaricdəki ali təhsil müəssisələrindən, 20 nəfəri isə magistratura pilləsindən köçürülüb. Qəbul olunanlardan 746 nəfəri isə subbakalavrlardır.

Transfer.edu.az portalından istifadə edərək arzuladıqları təhsil ocağına köçürülənlərlə söhbətləşib, proses haqqında təəssüratlarını öyrəndik.

### "Köçürülmə prosesinin dəqiqliyinə və şəffaflığına şahid oldum"

Sərxan Şahvələdov portal vasitəsilə köçürülən tələbələrdəndir. O, Qərbi Kaspi Universitetindən Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) köçürüldüyünü deyir: "Qərbi Kaspi Universitetinin "Dizayn" ixtisası üzrə Magistratura pilləsində təhsil alırdım. Amma təhsilimi bakalavr pilləsi üzrə bitirdiyim Azərbaycan Dövlət İqtisad Universitetində davam etdirmək böyük arzum idi. Bunun üçün Təhsil Nazirliyi tərəfindən yaradılmış *transfer.edu.az* portalının imkanlarından istifadə etmək qərarına gəldim. Köçürülmə prosesinin dəqiqliyinə və şəffaflığına şahid oldum. UNEC, "Dizayn və texniki estetika" ixtisası üzrə Magistr pilləsində təhsilimi davam etdirmək şansı qazandım. Tələbələrə bu cür yüksək şərait yaratdığı üçün Təhsil Nazirliyinə dərin təşəkkürümü bildirirəm".

### "Köçürülmə prosesi çox sadə və rahat oldu"

Aytən Əliyeva da sorğusu müsbət cavablandırılan tələbələrdəndir. O, portal vasitəsi ilə çox rahat, heç bir maneəyə rast gəlmədən köçürüldüyünü söyləyir: "Lənkəran Dövlət Universitetində təhsil alırdım. Yoldaşım Bakıda işlədiyi üçün təhsil aldığım universiteti dəyişmək qərarına gəldim. İnternet resurslarından köçürülmək üçün hara, necə müraciət etmək lazım olduğu məlumatını aldım. Sonra asanlıqla *transfer.edu.az* portalında qeydiyyatdan keçdim. Azərbaycan Dillər Universitetinə köçürülmək üçün sorğu göndərdim. Bir neçə gündən sonra telefonuma köçürülməyimlə bağlı müsbət cavab gəldi. Həqiqətən də köçürülmə prosesi çox sadə və rahat oldu. Bu rahat və şəffaf prosesə görə Təhsil Nazirliyinə minnətdarlığımı ifadə edirəm".

### "Bu sevinci mənə yaşatdığına görə Təhsil Nazirliyinə minnətdarlığımı bildirirəm"

Xarici ali təhsil müəssisəsindən ölkəmizdəki təhsil ocağına köçürülən Naziyə Qəhrəmanova da prosesla bağlı fikirlərini bizimlə bölüşüb. O, portal vasitəsilə Türkiyənin Bolu İzzət Baysal Universitetindən Bakı Dövlət Universitetinə transfer olduğunu deyir: YÖS imtahanlarında yüksək nəticələr əldə edərək Türkiyənin Bolu şəhərində yerləşən universitetə daxil oldum. Əslində arzum Türkiyədə təhsil almaq idi. Lakin məlum pandemiya səbəbindən dərslərimiz: online keçirdik. Sonra fikrimi dəyişdim və ölkəmizdəki universitetlərin birində təhsilimi davam etdirmək qərarına gəldim. Buna görə də portalda qeydiyyatdan keçib, sorğu göndərdim. BDU-nun psixologiya fakültəsinə köçürüldüm. Əslində prosesin bu qədər asan olacağını düşünmürdüm. Şükürlər olsun ki, bu gün mən artıq BDU kimi nüfuzlu təhsil ocağının tələbəsiyəm. Bunun üçün çox sevinirəm. Bu sevinci mənə yaşatdığına görə Təhsil Nazirliyinə minnətdarlığımı bildirirəm".

**Niyazi RƏHİMOV**

---

**Bölgələrdən**

## Şəhid ailələr ziyarət edilib

Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin hörmət və ehtiramla ziyarət edilməsi məqsədilə Ağdam RTŞ və YAP Ağdam rayon təşkilatının Qadınlar şurasının nümayəndələri rayonun fəal qadınları ilə birgə Azərbaycanın bütövlüyü uğrunda canlarından keçmiş şəhid Vəliyev Vüqar Emin oğlu və İsizadə Elvin Azim oğlunun ailəsində olublar.

Təhsil şöbəsindən aldığımız məlumata görə, görüşdə şəhidlərin ailə üzvlərilə söhbət aparılaraq Ali Baş Komandanımızın rəhbərliyi ilə şəhidlərimizin qisasının alındığını və düşmənə layiqli cavab verildiyini qeyd ediblər. Bildiriblər ki, Azərbaycan Ordusu dövlətimizin qüdrətinin nümunəsi olmaqla yanaşı, həm də xalqımızın iftixar yeridir.

## Dahi Nizaminin yubileyinə həsr olunmuş tədbir

Füzuli rayon 37 nömrəli ümumi orta məktəbdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar I-IV və V-IX siniflərdə karantin qaydalarına uyğun olaraq tədbir keçirilib.

Tədbirdə məktəbin dil-ədəbiyyat müəllimi Təranə Əsədova şagirdlərə şairin həyat və yaradıcılığı haqqında məlumat verib. Sonra şagirdlər şairin əsərlərindən nümunələr səsləndirib, yaradıcılığından qəzəllər, poemalarından parçalar və aforizmlər söyləyiblər.

Sonda məktəbin direktoru Sevil Hətəmova tədbiri yekunlaşdırıb.

## Şagirdlərlə maarifləndirici söhbətlər aparılıb



Şuşa şəhər 1 nömrəli tam orta məktəbdə 2020-2021-ci ilin Fəaliyyət Planına uyğun olaraq məktəbin həkim pediatrı Aynur Muradova, tibb bacısı Könül Əliyeva və psixoloq Ülviyyə Həşimovanın rəhbərliyi ilə VI-IX sinif şagirdləri ilə maarifləndirici söhbətlər aparılıb.

Təhsil şöbəsindən bildiriblər ki, Aynur Muradova şagirdlərə sağlamlığı qorumağın və möhkəmləndirməyin ən mühüm şərtlərdən biri gigiyena qaydalarına əməl etmələri olduğuna aydınlıq gətirilib.

Həmçinin psixoloq Ülviyyə Həşimova da qeyd edib ki, zərərli vərdişlərdən yaxa qurtarmaq üçün insan öz niyyət və düşüncəsini dəyişməlidir. Belə vərdişlərdən yaxa qurtarmağın ən yaxşı yolu yaxşı vərdişlərə yiyələnməkdir.

Sonda şagirdlərə mövzu ilə bağlı bukletlər paylanılıb.

## Uşaqlar yol hərəkəti qaydalarını öyrənirlər

Saatlı rayon V.Əzimov adına Qıraqlı kənd tam orta, M.Ağayev adına şəhər 2 nömrəli ümumi orta məktəblərində yol hərəkətinin təhlükəsizliyinə dair tədbirlər keçirilib.

Tədbirdə RPŞ-nin əməkdaşı, məktəbin pedaqoji heyəti və şagirdlər iştirak ediblər.

Təhsi şöbəsindən bidiriblər ki, tədbirdə təhlükəsiz həyat üçün davranış vərdişlərinin formalaşdırılması tövsiyə olunub və hamının qanunlara riayət etməyə borclu olduğu diqqətə çatdırılıb. Şagirdlərə yol hərəkəti qaydaları və yol nişanları barədə ətraflı məlumat verilib. Onlara yol hərəkəti qaydalarını məktəb yaşlarından öyrənməyin və buna əməl olunmasının vacibliyi vurğulanıb.

**Şakir CƏFƏROV**

# Məktəbdənkənar istedadlar

## Bakıdakı 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin üzvlərinin uğur hekayələri

Sifai SƏFƏROVA

Oxuculara təqdim etdiyim bu istedad sahibləri Bakıdakı 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin ən fəal üzvləridir. Onlar öz istedad və bacarıqlarını nümayiş etdirərək ölkə daxilində və beynəlxalq yaradıcılıq müsabiqələrində qaliblər cərgəsinə ucalıblar. Müəllimlərin əzmkarlığı, yaradıcı yeniyetmə və gənclərin fəallığı nəticəsində əldə olunan nailiyyətlər bu gün mərkəzə yönəli olan diqqət və marağı birə-beş artırır. Sabahın korifey sənətkarları ola biləcək istedadlı dərnək üzvləri sənətdə qazandıqları bütün uğurlara görə nə vaxtsa haqqında söhbət açdığımız bu mərkəzə öz dərin minnətdarlıqlarını fəxrlə dilə gətirəcəklər. Təbii olaraq qələbələr heç də asanlıqla qazanılmır. İstedad, üstəgəl birincilik iddiası və qətiyyət bu istedad sahiblərini qələbələrə aparan çətin yarışmalarda qalibiyyət kürsüsünə ucaldıb. Mərkəzdə 31 adda dərnək fəaliyyət göstərir. Oxucularımızı ən fəal dərnək üzvlərinin bir neçəsinin yaradıcılıq uğurları ilə yaxından tanış edirik.

### “Bütün nailiyyətlərimizdə müəllimlərimizin payı var”



Aytən Balaşova

Mənim 16 yaşım var. 6 yaşımdan Bakı şəhəri, Nizami rayonu 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin üzvüyəm. Mərkəzdə müxtəlif dərnəklərin üzvü olmuşam. “Çiçəyim” uşaq teatrı, “Azəri inciləri” rəqs qrupu, “Fortepiano” dərnəklərində öz istedadımı sınamışam. Hazırda isə, “Gənc aktyorlar” və “Mahnı teatrı” dərnəklərinin üzvüyəm. Heydər Əliyev Sarayında, Rus Dram Teatrında, Gənc Tamaşaçılar Teatrında, R.Behbudov adına Mahnı Teatrında uğurlu çıxışlarımız olub. Tez-tez televiziya kanallarına dəvətlər alırıq.

Hər il “Gənc aktyorlar” dərnəyinin rəhbəri Xanım İsmayılova hazırladığı tamaşalarla “açıq dərs”lər keçir. M.Füzulinin “Leyli və Məcnun”unda Leyli, Ə.Haqverdiyevin “Pəricadu” tamaşasında Pəricadu, A.Şaiqin “Qaraca qız” pyesində isə Pəricahan xanım obrazlarını məharətlə oynamışam. 2017-ci ildə “Gənc aktyorlar” dərnəyi ilə Türkiyənin Kayseri şəhərində keçirilən Uluslar ve Liseler arası Tiyatro festivalında biz Ü.Hacıbəyovun “Arşın mal alan operettası”nı kompozisiya şəklində çox uğurla nümayiş etdirdik. Mən bu əsərdə Gülçöhrə obrazını ifa edirdim. Tamaşamız 4 nominasiya üzrə qalib oldu. Mən qız rol ifaçıları arasında I yerə layiq görüldüm. Xanım müəllim isə “Musiqi tərtibatı” və “Rejissorluq” nominasiyası üzrə mükafatla təltif olundu. Çox sevindim ki, mərkəzimizi beynəlxalq festivalda layiqincə təmsil edə bildim. Biz onlayn festivallarda, müsabiqələrdə də çıxışlar edir, diplomlar qazanırıq. Beynəlxalq onlayn “3 Alov” festivalında “Fortepiano” nominasiyası üzrə III yerə layiq görülmüşəm. Nizami rayonu İdman və Gənclər İdarəsinin keçirdiyi onlayn şeir müsabiqələrində də bir neçə dəfə qalib adını qazanaraq I yerləri tutmuşam.

Riyaziyyat müəllimim deyir ki, məndən yaxşı riyaziyyatçı olar. Sinif müəllimim isə “Bu biliyini notlarına qurban vermə, səndən yaxşı pedaqoq olar”, - deyir. Təbii ki, müəllimlərimin fikirlərinə hörmətlə yanaşıram. Ancaq açığını deyim ki, özüm də hələ ki, peşə seçimində bir az çaşqınlıq içindəyəm. Bəzən valideynlər arasında elə fikirlər yürüdən də olur ki, uşaqlar dərnəklərdə məşğul olanda, dərsdən, təhsildən yayınırlar. Mən isə 10 illik təcrübəmə əsaslanaraq, deyə bilərəm ki, bu fikir qətiyyən düzgün deyil. Çünki mən dərnəyə də gedirəm, müsabiqələrdə də iştirak edirəm və bununla bərabər həm dərs əlaçısıyam, həm də sinif nümayəndəsi. Mərkəzimizin bizim dünyagörüşümüzün formalaşmasında rolu əvəzsizdir.

Mərkəzimizin direktoru Lalə Qəti hər zaman bizə diqqət və qayğı nümayiş etdirir. Bizə stimul verən müəllimlərmizin üzərimizdə əməkləri heç bir meyarla ölçülə bilməz. Bütün nailiyyətlərimizdə onların misilsiz payı var. Arzum Azərbaycan Dillər Universitetini bitirib səfir olmaq, Azərbaycanımızı xarici ölkələrdə layiqincə təmsil etməkdir.

### “Bizə göstərilən etimadı layiqincə doğrulduruq”



Zəhra Qasımova

11 yaşındayam. Artıq 7 ildir ki, 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin üzvüyəm. Müəllimim Əməkdar Mədəniyyət işçisi Rəna Kərimovadır. “Çiçəyim” uşaq teatırımız pandemiyayla əlaqədar olaraq mərkəzimizin hazırladığı bir çox videoçarxlarda iştirak edib. Mən də bu videoçarxlarda çox fəal olmuşam. “Evdə qal”, “Əsgərə məktub”, “Mənim qəhrəmanım” kimi bir çox aksiyalarda çıxış etmişəm. Bizim üçün sevindiricidir ki, bu il “Nizami Gəncəvi” ili elan edilib. Mərkəzimizdə bu mövzuya həsr olunan “dəyirmi masa” keçirildi və mən də bu konfransda var idim. Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poemasından “Kərpickəsən kişinin dastanı” hekayəsindən bir parçanı sevə-sevə ifa etdim. Dərnəyimizin istedadlı yetirmələri ilə birlikdə mən də Türkiyədəki 23 Nisan Çocuk festivalına dəvət almışdım. İstanbul, Fəthiyə, Antalya kimi şəhərlərdə uğurla çıxış etdik və diplomla təltif olunduq. Mən Yakust şəhərində keçirilən iki müsabiqədə iştrak etmişəm. Bunlardan biri bədii qiraət sahəsinə aid idi. Bu müsabiqədə I yerə layiq görüldüm. Növbəti müsabiqədə “Çiçəyim” uşaq teatrı dəbli geyimləri nümayiş etdirdi. Həmin müsabiqədə də bizim komanda daha çox bəyənildi və “Qran-pri” mükafatına layiq görüldük. Yeri gəlmişkən qeyd edim ki, Baku Media Centerin çəkdiyi “Hər şey yaxşı olacaq” adlı videoçarxı səsləndirən mən olmuşam. Heydər Əliyev Sarayında keçirilən uşaq tədbirlərində mütəmadi olaraq iştirak edirəm. Biz də bir yaradıcı komanda olaraq bir çox nağıl tamaşaları şəhərimizin böyük teatr salonlarlında səhnəyə qoymuşuq. Heydər Əliyev Fondunun keçirdiyi yeni il tədbirlərində artıq 5 ildir ki, tanınmış aktyorlarla birlikdə öz istedadımı nümayiş etdirərək əsas rollardan birini oynayıram. Bir çox kiliplərdə, reklamlarda, televiziya kanallarında çəkilişlərə dəvətlər alırıq və bizə göstərilən etimadı da layiqincə doğrulduruq. Valideyinlərimə təşəkkür edirəm ki, məni zamanında bu mərkəzə üzv yazdırıblar. Görün burada mən özümə nə qədər sədaqətli dostlar qazanmışam. Hamısı da istedad sahibləridir. Bütün uğurlarıma görə sevimli müəllimim Rəna Kərimovaya və təbii olaraq dərnək üzvlərimizin məşqləri üçün yaratdığı bütün şəraitə görə mərkəzimizin direktoru Lalə Qətiyə təşəkkürümü bildirirəm. O diqqətdən, o qayğıdan biz dərnək üzvləri kifayət qədər bəhrələnməsəydik sizin qarşınızda heç bir qalibiyyətdən, uğurdan söhbət aça bilməzdik.

### “Yaradıcılıq müsabiqələrində, idmanda da birincilik qazanmışam”



Roza Tarverdiyeva

2008-ci ildə Bakıda anadan olmuşam. Humanitar fənlər təmayüllü məktəb-liseyin şagirdiyəm. 8 ildir ki, mərkəzin “Azəri inciləri” rəqs qrupu və “Çiçəyim” uşaq teatrının fəal üzvüyəm. Beynəlxalq, eyni zamanda ölkədaxili yaradıcılıq müsabiqələrində və bir çox başqa tədbirlərdə həmişə iştirak etmişəm və birincilik qazanmışam. Heydər Əliyev Sarayında təşkil olunan “Zima” qış tədbirində iştirakımla təmsil olunduğum kollektivə qələbə sevinci yaşatmışam. İki ildir “Kaspi” təhsil mərkəzində ingilis dilini də öyrənirəm. Düşünürəm ki, öz gələcək perspektivlərini təmin etmək üçün hər bir məktəbli bu dili də mükəmməl bilməlidir.

Yeri gəlmişkən, mənim idmana da hədsiz marağım var. Dörd ildir ki, mütəmadi olaraq Sərhədçi İdman Kompleksində üzgüçülük idman növü ilə, eyni zamanda paralel olaraq gimnastika və karate ilə də məşğul oluram. Gimnastika və karate üzrə keçirilən idman yarışlarında dəfələrlə iştirak etmişəm I, II və III yerlərə layiq görülmüşəm. Kifayət qədər diplomlarım və medallarım da var. Hamısı da əzmkarlığımın, gərgin zəhmətə qatlaşmağımın bəhrəsidir. Karate idman növü üzrə artıq sarı kəmər sahibiyəm. Beş yaşımdan mərkəzdə rəqs qrupunda və uşaq teatrında həvəslə məşğul olaraq uğurlara imza atıram. “Azəri inciləri” rəqs qrupunda müəllimim Samirə Musaim, “Çiçəyim” uşaq teatr dərnəyində isə Rəna Kərimovadır. Hər ikisinin üzərimdə zəhməti böyükdür. Heydər Əliyev Fondunun təşkil etdiyi tədbirlərdə 6 il mütəmadi olaraq iştirak etmişəm. Moskvada, Belarusda, Qazaxıstanda, Türkiyədə keçirilən yaradıcılıq müsabiqələrində dəfələrlə birincilik qazanmışam.

### “Ən böyük arzum Vətənimə layiqli övlad olmaqdır”



Cavid Haqverdiyev

Artıq 9 ildir ki, mərkəzdə “ Mahnı teatrı” dərnəyinin üzvüyəm. Xüsusi istedad və bacarığım ilə yaşıdlarımdan seçilirəm. Ötən bu illər ərzində müxtəlif nominasiyalı müsabiqələrdə, festival və yarışmalarda iştirak edərək təmsil olunduğum kollektivə başucalığı qazandırmışam. “Azəri inciləri” vokal qrupunun solisti olmuşam. İlk nailiyyətimi 8 il əvvəl “Yeni uşaq mahnıları-2013” adlı festivalda “Qaranquşum” mahnısı ilə əldə etmişəm. 2014-cü ildə S.Vurğun adına Azərbaycan Rus Dram Teatrında keçirilən “Bizim rəqs dünyamız” adlı hesabat konsertindəki ifalarım “Kəndimiz”, “Dostluq mahnısı” tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Dəfələrlə beynəlxalq yarışlara qatılaraq birincilik qazanmışam. Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin təşkilatçılığı ilə keçirilən “Vətən yaxşıdır” adlı onlayn respublika mahnı müsabiqəsinin “Bəstəkar mahnıları” nominasiyası üzrə lll yerin qalibi oldum. Müsabiqə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Xudayar Yusifzadəyə və onun timsalında bütün şəhidlərin xatirəsinə həsr olunmuşdur. Qırğızıstan Respublikasında təşkil olunan Gənc İstedadların II Beynəlxalq onlayn festivalında isə vokal nominasiyası üzrə “Doğma yurdum” mahnısını ifa edərək II yeri tutdum. Vokal müəllimim İradə Cabbarovaya təşəkkür edirəm. Dəfələrlə televiziya kanallarında çıxışlarım olub. Karantin dövrundə bir çox beynəlxalq və respublika üzrə onlayn müsabiqələrdə iştirak etmişəm. “Evdə qalaq, nəğmə deyək” adlı müsabiqədə I, “Sing at home” adlı beynəlxalq italyan müsabiqəsində II, “İstoki” adlı beynəlxalq müsabiqədə II, “Xarı bülbül” adlı respublika müsabiqəsində I yerlərə layiq görülmüşəm.

Ən böyük arzum Vətənimə layiqli övlad olmaqdır. Ümid edirəm ki, bu arzuma çatacağam.

# BMU tələbələri istehsalat təcrübəsində

Bu ilin 16 fevral tarixindən Bakı Mühəndislik Universitetinin (BMU) tələbələrinin istehsalat təcrübəsinə göndərilməsinə start verilib. 25 may tarixində başa çatması nəzərdə tutulan istehsalat və pedaqoji təcrübələr mövcud pandemiya qaydalarına uyğun olaraq təşkil edilir.




Universitetdən bildirilib ki, cari tədris ilində iqtisadiyyat və idarəetmə fakültəsi üzrə 334 tələbə, memarlıq və inşaat fakültəsi üzrə 109 tələbə, mühəndislik fakültəsi üzrə 252 tələbə, tərcümə (ingilis dili) ixtisası üzrə 39 tələbə olmaqla cəmi 734 tələbə istehsalat təcrübəsinə göndərilib.

Tələbələr istehsalat təcrübəsini Sumqayıt Texnologiya Parkı, "Azertexnolayn" MMC, "Veysəloğlu" Şirkətlər Qrupu, "Azərsu Holding", "Azərsu" ASC-nin müəssisələri, "Bank of Baku", "Kapital Bank", "Azər Türk Bank", Elektron Hökumətin İnkişafı Mərkəzi, "Aztelekom" MMC, Abşeron Rayon İcra Hakimiyyəti, "Ramco" QSC, "Technol" MMC, Suraxanı Rayon Gənclər və İdman İdarəsi, Şəms və Avrasiya tərcümə mərkəzləri, "Azmarketing" MMC, "NSP Solutions" MMC, "Park Hill Properties" MTK, Ram LTD və s. müəssisələrdə keçəcəklər.

Pedaqoji fakültə üzrə 191 nəfər tələbə isə pedaqoji təcrübəyə başlayıb. Pedaqoji təcrübələr bir sıra lisey və məktəblərdə, o cümlədən "İdrak" liseyi, "Hədəf" liseyi, "Zirvə" liseyi, Avropa Azərbaycan məktəbi, Landau məktəbi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzində təşkil olunub.

Bundan əlavə, müxtəlif ixtisaslar üzrə 2-ci kurs magistrantların elmi-tədqiqat təcrübəsi 16 fevral - 15 mart, elmi-pedaqoji təcrübələri isə 17 mart -13 aprel 2021-ci il tarixlərində təşkil olunur.

Yaz semestrində təşkil olunan təcrübə proqramında Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Dünya siyasəti, Beynəlxalq münasibətlər və diplomatiya, Metal konstruksiyaların və qurğular nəzəriyyəsi, Kompüter mühəndisliyi, İdarəetmədə informasiya sistemləri, Əsas üzvi sintezin kimyası və texnologiyası ixtisasları üzrə ümumilikdə 39 magistrant iştirak edir.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.İ.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4209, **Sifariş** 491

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Laçın rayon** Mığıdərə kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş İsmayılova Sevinc Şahmar qızına verilmiş A-096130 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2018-ci ildə Əligülov Teymur Elçin oğluna verilmiş C-009067 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Yəhyayeva (Abdurrəhmanova) Nuranə Tofiq qızına verilmiş 072121 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Yuxarı Ləki qəsəbə 6 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş İsgəndərova Sevda İlşad qızına verilmiş A-786751 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 1992-ci ildə Nəzərov Mürsəl Həsən oğluna verilmiş PT-I-093697 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikası Təhsil Nazirliyi** tərəfindən 2017-ci ildə Məmmədova Nərmin Azər qızına verilmiş 012452 və 013554 nömrəli şəhadətnamələr itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Gəlmə kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Qədirova (Məmmədova) Yelena Qədirovnaya verilmiş B-489707 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Ə.İsaxanov adına Quşçu kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Şirinov Bəhruz Ərəstun oğluna verilmiş A-318124 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərəfindən 2019-cu ildə Zeynalov Orxan Mübariz oğluna verilmiş magistr qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərəfindən 2019-cu ildə Əliyev Əli Sahib oğluna verilmiş magistr qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 1 nömrəli məktəb-liseyi 2003-cü ildə bitirmiş Məmmədov Zaur Hüseynağa oğluna verilmiş 680831 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Hüseynov Elşad Əliyağa oğluna verilmiş AK-273606 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Nəzərova Mehparə Nadir qızına verilmiş A-478726 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Peşə Liseyini** 2013-cü ildə bitirmiş Əliyev Pərviz Surəddin oğluna verilmiş A-276734 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Xoreoqrafiya Məktəbinin** (indiki Bakı Xoreoqrafiya Akademiyası) IX sinfini 1990-cı ildə bitirmiş Hüseynov Kamran Ağayar oğluna 1992-ci ildə verilmiş A-731952 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Camalov Aftandil İdris oğluna verilmiş B-147813 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 18 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Babayeva (Dadaşova) Aygün Akif qızına verilmiş B-117165 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Maxta kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Asim Həsən oğluna verilmiş A-735025 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Bayramlı Gülanə Mehrəli qızına verilmiş A-230057 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Mamusta kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Fərzullayeva Ramiyyə Arif qızına verilmiş A-017926 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Bulaqlı kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Cövdətov Elnur Nasir oğluna verilmiş A-103642 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini** 1996-cı ildə bitirmiş Musayev Vüqar Əziz oğluna 1998-ci ildə verilmiş MN-0005883 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 12 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Hüseynov Rafael İsmayıl oğluna verilmiş B-222552 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 18 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əsədova Əntiqə Sərkar qızına verilmiş A-548875 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbi** tərəfindən 1977-ci ildə Xasmətov Qafil Sabir oğluna verilmiş Э-I-011718 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xırdalan şəhər** Texniki və Təbiət fənləri təmayüllü 3 nömrəli məktəb-liseyin IX sinfini 2004-cü ildə bitirmiş Kərimova Nazilə Rövşən qızına verilmiş A-027613 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2015-ci ildə Dadaşbalayeva Fidan Vaqif qızına verilmiş AA-062649 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 274 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Cabbarzadə Mətin Kərim oğluna verilmiş C-026287 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərəfindən 2019-cu ildə Muradov Mais Şükür oğluna verilmiş magistr qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərəfindən 2019-cu ildə Fətəliyev Emin Şirəli oğluna verilmiş magistr qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 2016-cı ildə bitirmiş Rəcəbli Əfşər İman oğluna verilmiş A-494516 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 1 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Aydəmirova Billurə Mirzəqulі qızına verilmiş 563953 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2020-ci ildə Hüseynov Habil Eldar oğluna verilmiş C-072665 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2020-ci ildə Ağayeva Qızxanım Hafis qızına verilmiş C-072195 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Məmmədov Rəşad Fəxrəddin oğluna verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 267 nömrəli məktəb-liseyi 1996-cı ildə bitirmiş Məcidov Kənan Cavanşir oğluna verilmiş A-129545 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2002-ci ildə Kəlbalıyev Elman Əbil oğluna verilmiş A-083265 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2007-ci ildə Abbasov İsmayıl Olman oğluna verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2006-cı ildə Səmədov Nadir Tofiq oğluna verilmiş BB-I-004258 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Quba rayonu** Utuq kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Cərullayev Cəmil Ənvər oğluna verilmiş A-562343 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası** tərəfindən 1999-cu ildə Məmmədov Mikayıl Hüseyn oğluna verilmiş A-046566 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Mühəndis İnşaat İnstitutu** tərəfindən 1980-ci ildə İbrahimov Eldar Göycə oğluna verilmiş EB-283180 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qaraçinar kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Məmmədov Namiq Təbib oğluna verilmiş A-082610 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayonu** Boladi kənd 1 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Xasiyeva (Axundova) Naibə Əhməd qızına verilmiş 32 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Səfərov İbrahim Gülhüseyn oğluna verilmiş B-060111 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Boluslu (keçmiş Cinliboslu) kənd tam orta məktəbin VIII sinfini 1981-ci ildə bitirmiş Əliyeva (Həsənova) Gülbəniz Hüseyn qızına verilmiş A-288607 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş İsmayılova (Əhmədova) Zülfiyyə Ağaismayıl qızına verilmiş A-647000 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Muradov Saleh Xəqani oğluna verilmiş B-380283 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Truhidə İrfan İlham oğluna verilmiş B-301632 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Dünyanı bürümüş pandemiya Avropanın ayrı-ayrı ölkələrində təhsil sistemləri üçün ciddi problemlər yaratmaqdadır. Görünən budur ki, bir sıra ölkələr pandemiyanın yaratdığı tam təcrid zamanı təhsil sistemində tətbiq edilən onlayn təlimin üstünlükləri və mənfi cəhətləri ilə ciddi məşğul olmaq məcburiyyətində qalacaq. Amerikanın "Chegg" texnologiya şirkətinin apardığı sorğunun nəticələrinə əsasən, universitetlərdə onlayn təhsil prosesinin inkişafının sürətlənməsi milyonlarla tələbənin həyatını sadələşdirə, eyni zamanda, bir sıra problemlərə səbəb ola bilər.**



# Təhsil texnologiyaları məktəbi dəyişəcək

**Onlayn təhsil prosesinin inkişafının sürətlənməsi milyonlarla tələbənin həyatını sadələşdirə bilər**

Məlum olub ki, Böyük Britaniyadan olan tələbələr pandemiyadan özlərini daha çox, Almaniyadan olan tələbələr isə ən az zərər çəkənlər kimi hiss edirlər. Əksər italiyalı tələbələr təcrid dövrünün üstünlüklərindən istifadə edə biliblər, eyni zamanda onlar gələcəyə bədbin baxırlar. "Universitetin divarları arasında təhsil almaq və kampusda yaşamaq gözəl təcrübədir. Mən özüm universitetdə oxudum və yaxşı vaxt keçirdim. Distant təhsil və auditoriyada keçilən dərsləri niyə birləşdirməyəsiniz? Düşünürəm ki, bu gün elmi-texniki tərəqqi insanlara seçim imkanı yaradır", - deyə "Chegg" şirkətinin nümayəndəsi Mark Bogser bildirir.M.Bogser onlayn təhsil texnologiyaları ilə əyani təhsil formalarının sıx inteqrativliyinin tərəfdarıdır.

## Ölkələr rəqəmsal təhsilə sürətli keçməyə hazır deyillər

Pandemiyadan sonra təhsilini onlayn olaraq davam etdirilməsini ən az Almaniyadan olan tələbələr istəyirlər, əksinə italiyalı gənclərdə bu məsələdə daha çox həvəs var. Ekspertlər qeyd edirlər ki, ölkələr rəqəmsal təhsilə sürətli keçməyə hazır deyillər. "Təəssüf ki, bir çox təhsil qurumları onlayn təlimin reallıqlarına uyğunlaşa bilməyib. Bəzi təhsil müəssisələri bunu etdi, yaxşı proqramlar hazırladı.Amma mənə elə gəlir ki, çoxları tamamilə fərqli istiqamətə meyillidirlər.Pandemiya 10 və ya 20 il çəkə biləcək bir prosesi sürətləndirdi. Əminəm ki, pandemiyadan sonra ali təhsil fərqli olacaq ", - deyə "Chegg" şirkətinin nümayəndəsi qeyd edir.

## Əsas tendensiyalar

Texnologiyalar 2020-ci ildə təhsil sahəsində tam hökmranlıq etdi. Amerikada hazırlanmış "State of Technology in Education Report"-un illik hesabatına əsasən, tam sosial təcrid zamanı müəllimlər tədris prosesini məsafədən yaradıcı şəkildə şaxələndirmək üçün mövcud olan bütün cihazlar və proqramlardan istifadə etməyə çalışdılar. 10 müəllimdən 9-u sonralar da bunu tətbiq etmək niyyətindədir. Bu baxımdan 2021-ci ildə təhsil texnologiyalarında müşahidə edəcəyimiz əsas tendensiyalar bunlar olacaq:

## İnformasiya daha əlçatan olacaq

Yeni texnologiyalar tələbə və məktəblilərə yeni məlumatları daha asan əldə etməyə imkan verdi. Xüsusilə, böyük şəhərlərdə yaşayanlar üçün əlverişli oldu.Mütəxəssislər gələcəkdə məlumatlarla işləməyin daha da asan olacağını gözləyirlər. Məsələn, disleksiya və digər pozuntuları olan şagirdlər üçün xüsusilə aktual olan səsin mətnə uyğunlaşdırılması vasitələri sürətlə inkişaf edəcək.

## Texnologiyalara ayrılan vəsaitlərin həcmi artacaq

Məktəblər təhsil texnologiyalarına (Edtech) daha fəal şəkildə vəsait qoyacaqlar.Lakin heç də hər təhsil müəssisəsi texniki bazanı yeniləyə bilməyəcək. Mütəxəssislər maliyyə problemlərinin hər yerdə aradan qalxmayacağını gözləyirlər. Amma bütün rəqəmsal işlərə diqqət yetirmək müəllimləri artıq əldə etdikləri alətlərdən daha geniş istifadəyə sövq edəcək. İstifadəçilər köhnə cihazı dəyişmədikdə, işlərini davam etdirmək üçün onları modernləşdirdikdə qadjetlərdən təkrar istifadə modeli aktual olacaq. Ümumiyyətlə, məktəblər yeni qadjetlər əldə etməklə yanaşı, həm də onları ümumi IT infrastrukturuna - qapalı iqtisadiyyatın yaradılması tendensiyasına daxil etməyə çalışacaqlar.





## Müştərilər daha mükəmməl olacaqlar

Gözlənilir ki, 2021-ci ildə məktəblər texnikanın alınması ilə bağlı daha əsaslı qərarlar qəbul edəcəklər: təhsil müəssisələri artıq səmərəliliyini təsdiqləyən və məktəbin pedaqoji vəzifələrinə mümkün qədər uyğun olan texnologiyalara daha çox pul yatıracaqlar.

Satınalma büdcəsi həmişə məhdud olduğundan rəhbərlər əldə etdikləri cihazların səmərəliliyinə diqqət yetirəcəklər. Bundan başqa, yeni texnikaya daha bir tələb əlavə ediləcək: o, artıq qurulmuş IT infrastrukturuna asanlıqla daxil olmalıdır.

## Birgə iş resursları TOP-da olacaq

Hesabata görə, birgə işləməyi nəzərdə tutan (interaktiv panellər, planşetlər, çoxməqsədli tətbiqlər və s.) ən çox tələb olunan texnologiyalar olaraq qalacaq. Onlar artıq ən yüksək istifadə göstəricilərinə malikdirlər və il ərzində öz mövqelərini əldən verməyəcəklər. Müəllimlər gözləyirlər ki, komanda işini və əməkdaşlığı təşviq edən alətlər tələbələr və onların həmyaşıdları arasında peşəkar əlaqələrin qurulmasına və uşaqlara yumşaq bacarıqlar (soft skills) əldə etməyə kömək edəcək.

## Metodika texnologiyadan daha vacib olacaq

Son 10 ildə yaradıcı texnologiyalar təklif edən bir çox startap yaranıb, lakin onların çoxu tələb olunmur, çünki tərtibatçılar öz məhsullarını pedaqoqların ehtiyacları və metodik nüanslarla əlaqələndirməyi unudublar.

Qabaqcıl qərarlar tez-tez məktəbdə uzun müddət qalmır, çünki onların yaradıcıları nəzərə almırlar ki, qərarlar sadəcə orijinal və qeyri-standart olmalıdır, həm də müəllimin gündəlik rutin işinə - planlaşdırma, qiymətləndirmə, təlimə uyğunlaşmalıdır. Distant təcrübəsi seçim etmək imkanı yaratdı, 2021-ci ildə müəllimlər mürəkkəb və qeyri-adi texnologiyaları deyil, işləmək üçün əlverişli və metodik tapşırıqlara uyğun olanları seçəcəklər.

Ümumiyyətlə, 2021-ci ildə "texnoloji bumu"qabaqlayan qadjet istehsalçıları çoxlu sayda təhsil alətləri təklif edəcəklər. Lakin mükəmməl alıcılar artıq yalnız orijinallığı kor-koranə təqib etməyəcəklər. Bütün müxtəlifliklərdən, əsasən, məktəbin infrastrukturuna yaxşı uyğunlaşacaq, sınaqdan keçirilmiş və iş üçün daha asan həllər ilə maraqlanacaqlar.

## Onlayn təhsil bazarının inkişafı sürətləndi

Koronavirus pandemiyası onlayn təhsil bazarının inkişafını sürətləndirdi - bütün dünyada məktəblilərin və tələbələrin 90%-dən çoxu karantin zamanı uzaqdan oxumağa məcbur oldu. "Renub Research" konsaltinq şirkətinin analitiklərinin məlumatına görə, artıq 5 ildən sonra onlayn təhsil bazarının həcmi 350 milyard dollara çatacaq. Artıq uzaqdan təhsil sənayesi ən sürətli və perspektivli sənayelərdən birinə çevrilib.

Onlayn təhsilin daha keyfiyyətli olması üçün yeni tədris formatları və fərdiləşdirilmiş yanaşma lazımdır ki, bu zaman hər bir şagirdin bilik qiymətləndirmə sistemi ilə fərdi təlim trayektoriyalarını qurmaq mümkün olacaq.

Yaxın gələcəkdə onlayn təhsil də dəyişəcək. Hər şeydən əvvəl müəllimlərin rolu dəyişəcək, onlar yalnız müəyyən məzmun yaratmaqla yanaşı, mentor kimi çıxış etməyə başlayacaq, şagirdlərə psixoloji dəstək göstərəcəklər. Onlayn təlim prosesi özü daha maraqlı, həyəcanverici olmalıdır və onun fokusu hər tələbənin yüksək bacarıqlarının inkişafı üçün bütün informasiyanı hər kəsə ötürmək istəyinə əsaslanmalıdır.

Düşünmək olar ki, gələcəkdə onlayn təhsil həyatımıza getdikcə daha çox daxil olmağa başlayacaq, ona tələbat artacaq və qiymət siyasətini artım istiqamətində irəliləməyə məcbur edəcək. Burada ənənəvi təhsildə olduğu kimi, hər şey keyfiyyətdən asılıdır. Keyfiyyətli onlayn təhsil bahalı olacaq, çünki bu, həm kompüter əldə etməyi, həm də yüksək sürətli fasiləsiz internetin mövcudluğunu, həm də təsdiqlənmiş pullu təhsil resurslarının əldə olunmasını tələb edir.

## EdTech bazarı

"TalentTech"-in araşdırmalarına əsasən, 2019-cu ildə dünyada onlayn təhsil bazarının həcmi 6,5 trilyon dollarla ölçülüb. 2025-ci ilin proqnozu 8, 2030-cu ilin proqnozu isə 10 trilyon dollardır. Rusiyada onlayn təhsil bazarı 2019-cu ildə 38,5, 2023-cü ilə qədər isə 60 milyard rubla çata bilər. Lakin artıq 2020-ci ildə pandemiya səbəbindən artım 60% təşkil etmişdir.

"HolonQ"un məlumatına görə, dünya onlayn təhsil bazarı sürətlə artır. Bu gün Hindistanda, Çində və ABŞ-da yerləşən 19 şirkət onlayn təhsil bazarında hökmranlıq edir. Son on ildə bu şirkətlər 9 milyard dollardan çox investisiya cəlb ediblər.

2020-ci ildə ən böyük 42 EdTech şirkəti ümumi məbləği 16 milyard dollardan çox olan 58 meqa-vençur sövdələşməsi (yəni, şirkətin inkişafının final mərhələsində 100 milyon dollardan çox investisiya cəlb etmişdir) keçirmişdir. Məsələn, Çinin Zouyebang şirkəti 750 milyon dollar cəlb etdi, Hindistanın Byju şirkətinin 10 milyard dollardan çox dəyəri olan ilk Edtech layihəsi olub. Çinin Yuanfudao şirkəti isə 1 milyard dollarlıq investisiya seriyasını başa vurub - bu, təhsil şirkəti üçün dünyanın ən böyük fandrayzinqidir.

**Oruc MUSTAFAYEV**